

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Humanizmin və haqq-ədalətin ünvanı



3

# "Dostluq münasibətlərimiz uğurla inkişaf edir"



2

*Prezident İlham Əliyev Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatorunu qəbul edib*


SƏS

№ 079 (7004)

7 may 2024-cü il.
Qiymәti 60 qәpik


# İkiüzlülük və ikili standartlarla bağlı ETİRAF



5

## Səfir Mark Libbin Xədicə İsmayılla nəyi müzakirə edə bilər?



13

## İtirdiyimiz xüsusiyyətlər: ədəb



14

## Psixotron terror: Uşaqlarımız tam müdafiəsizdir?



9

## Əmlak kirayə verirsiniz? – mütləq müqavilə bağlayın!



16

## Tolerantlıq və dözümlülük mərkəzi – Azərbaycan



7

# “Dostluq münasibətlərimiz uğurla inkişaf edir”

## *Prezident İlham Əliyev Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatorunu qəbul edib*





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkini qəbul edib. Görüşdə Azərbaycan ilə Rusiya Federasiyası arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilərək, ölkəmizin Rusiyanın ayrı-ayrı regionları, o cümlədən Həştərxan vilayəti ilə həyata keçirdiyi əməkdaşlığın bu işə öz töhfəsini verdiyi vurğulandı.***

Azərbaycan Prezidentinin bu yaxınlarda Rusiyaya uğurlu səfəri qeyd olunaraq, bu səfərin əlaqələrimizin daha da möhkəmlənməsini nümayiş etdirdiyi bildirildi. Dövlətimizin başçısı bu səfər çərçivəsində Rusiya Prezidenti ilə birlikdə Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə Moskvada dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşündə tədbir iştirakçılarının Ulu Öndərin bu layihənin reallaşmasındakı xidmətlərini böyük hörmətlə yad etmələrindən məmnunluğunu bildirərək vurğuladı ki, bu, münasibətlərimizin səmimiliyini nümayiş etdirir və qürur hissi doğurur.

Həştərxan vilayətinin qubernatoru, ilk növbədə, İlham Əliyevi prezident seçkilərində inamlı qələbə münasibətilə təbrik edərək, bunu Azərbaycan xalqının dövlətimizin başçısına sonsuz etimadı kimi dəyərləndirdi.

Prezident İlham Əliyev təbriklərə və xoş sözlərə görə minnətdarlığını bildirdi.

İqor Babuşkin ötən il Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Həştərxanda geniş miqyasda bir sıra təntənəli tədbirlərin keçirildiyini deyərək bununla bağlı hazırlanmış xatirə fotoalbomunu dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev Həştərxanda Ümummilli Liderin xatirəsinə göstərilən yüksək ehtirama görə minnətdarlığını bildirərək, bunu ölkələrimiz və xalqlarımız arasında dostluğun nümunəsi olduğunu dedi.

Həştərxan vilayətinin qubernatoru Xəzəryanı ölkələri əhatə edən və dostluq rəmzi olan “Xəzər - Dostluq dənizi” devizi altında həyata keçirdikləri motoyürüşə Azərbaycan hökumətinin dəstəyinə görə minnətdarlığını ifadə etdi.

Söhbət zamanı Heydər Əliyev Fondunun Həştərxanda reallaşdırdığı layihələrin önəminə toxunuldu. Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



# İtaliyanın xəbər agentliyi VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumundan yazıb

***İtaliyanın “AISE” informasiya agentliyi Bakıda keçirilən “Sülh və qlobal təhlükəsizlik naminə dialoq” mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ilə bağlı məqalə dərc edib. Yazıda Azərbaycan Prezidenti İlham Əliyevin forumun açılış mərasimindəki nitqində səsləndirdiyi fikirlərə yer verilib.***

Məqalədə Forumda müzakirə olunan məsələlərdən biri - çoxtərəfliliklə bağlı Azərbaycan Prezidentinin çıxışından sitat gətirilib: “Azərbaycan öz təcrübəsini göstərib. Biz qəti şəkildə çoxtərəfliliyə sadiqik. Biz çoxtərəflilik dəyərlərini 120 ölkənin üzv olduğu Qoşulmama Hərəkatında 2019-cu ildən bu ilin əvvəlinə qədər təşviq etmişik. O, BMT-dən sonra ikinci ən böyük təşkilatdır və həmçinin bununla bağlı yekdil qərarımız oldu, sədrliyimiz yekdil qərarla əlavə bir il də artırıldı. Təbii ki, Qoşulmama Hərəkatının vacib təməl dəyərləri məhz suverenlik, ölkələrin ərazi bütövlüyü, daxili işlərə qarışmamaqdır. Biz həmin Hərəkatın təsisatlanması seqmentinin gücləndirilməsinə çalışdıq və bununla bağlı daxildə şəbəkə yaratdıq, qadınların və gənclərin təşkilatlarını təsis etdik. Bütün bunlar məhz Azərbaycan tərəfindən yaradılıb”.

Azərbaycan hökumətinin tezisi ondan ibarətdir ki, bütün əsas problemləri daxildə həll etmək, bütün etnik qrupların və bütün dinlərin nümayəndələrinin özlərini təhlükəsiz, ləyaqətli və hörmətli hiss etdikləri atmosfer yaratmaq lazımdır.

“Əgər belə olmasa, bu, yalnız ayrı-seçkiliyə, etimadın çatışmazlığına aparıb çıxarar və sonda bu, sosial və bir çox hallarda siyasi çətinliklərlə nəticələnər. Bu, ölkə daxilində parçalanmaya səbəb olar. Buna görə, məhz təcrübəmiz göstərir ki, biz müstəqilliyin ilk illərində çox çətinliklər yaşadıq və bu vəziyyətdən çıxa bildik. Çünki o vaxt işğal var idi, çox iqtisadi və sosial çətinliklər özünü büruzə verirdi. Azərbaycanı parçalamaq cəhdləri var idi və məhz aqressiv separatçılıq var idi. Bütün bunlar Azərbaycan xalqının məhz həmrəyliyini, birliyini sınağa çəkdi. Buna görə milli maraqların qorunması bizim uğurumuz üçün çox vacib amil idi. Əlbəttə ki, bu kontekstdə dini rəhbərlərin rolu xüsusi əhəmiyyət kəsb edir”, - deyə Prezident İlham Əliyev forumda bildirib.




Məqalədə qeyd olunur ki, Forum Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2008-ci ildə başlanmış və aparıcı beynəlxalq təşkilatların dəstəklədiyi “Bakı Prosesi”nin tərkib hissəsidir. Məqsəd dialoq vasitəsilə sülhü təşviq etmək, qlobal təhlükəsizliyi gücləndirmək və əməkdaşlığı möhkəmləndirməkdir. Forum yeni siyasət, sənədlər və razılaşmalar formalaşdırır və onlar təxirəsalınmaz məsələlərdə dünya hökumətlərinə təsir göstərmək qüvvəsinə malikdir.

Üç gün ərzində Forum çərçivəsində keçirilən bir sıra plenar iclaslarda və dəyirmi masalarda geniş spektrdə maraqlı tərəflər, o cümlədən hökumət rəsmiləri, beynəlxalq təşkilatların nümayəndələri, görkəmli mədəniyyət xadimləri, 100 ölkədən jurnalistlər, vətəndaş cəmiyyəti fəalları və dünyanın müxtəlif ölkələrindən olan ziyalılar aktual qlobal çağırışları müzakirə etmək üçün toplaşıb.

Yazıda Azərbaycanın Avropa və Asiya arasında geosiyasi mərkəz olmağa, eyni zamanda, enerji dosyesindən kənarda da rol oynamağa namizəd olduğu bildirilir.





# Humanizmin və haqq-ədalətin ünvanı

***İllərdi ki, yorulmaq bilmədən çalışan və böyük əhəmiyyət kəsb edən, müasir dünyamızın çağırışlarına cavab verən layihələri ilə milyonlarla insanın sevgisini qazanan Azərbaycanın Birinci Xanımı, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyəti özünün vurğuladığı kimi, sarsılmaz həqiqətlərə söykənir: "Əxlaq və mənəviyyat, insaniyyət və şəfqət, inam və məhəbbət, xeyirxahlıq və saf niyyətlər Yaradanın hər birimizə bəxş etdiyi ən gözəl keyfiyyətlərdir".***

Heydər Əliyev Fondunun prezidenti Azərbaycanın Birinci xanımı, Mehriban Əliyeva hər zaman xalqın yanında olan onun problem və qayğıları ilə maraqlanan və onların çözülməsinə çalışaraq həqiqətən də insanların ümid, pənah yeridir. Xeyirxahlıq, haqq-ədalət ünvanıdır. Ulu Öndər Heydər Əliyev ideyalarını davam etdirən Fondun şəxəli fəaliyyəti Azərbaycanın sosial, iqtisadi, mədəni həyatında əks-səda doğuraraq, birmənalı qəbul edilir. Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyev haqqında belə deyir: "O, Vətəninə, müstəqil, çiçəklənən, qüdrətli Azərbaycanda xoşbəxt görmək istədiyi xalqına olan sonsuz sevgisini hər şeydən üstün tuturdu. Bu gün Heydər Əliyev bizimlə olmasa da, onun ideyaları yaşayır, niyyətləri həyata keçirilir. Ən başlıcası onun müqəddəs arzusu reallaşıb".

## "LƏYAQƏT VƏ ŞƏRƏF HİSSİNİN HƏR ŞEYDƏN ÜSTÜN OLDUĞUNU AŞILADILAR"

Mehriban xanım Əliyeva valideynlərindən əxz etdiyi dəyərləri hər zaman üstün tutaraq, onların öyrətdikləri həqiqətə və mənəviyyata can atmağı özünün həyat məqsədinə çevirib: "Onlar öz varlığı ilə ləyaqət və şərəf hissinin hər şeydən üstün olduğunu aşıladılar. Öyrətdilər ki, alicənablıq və dürüstlük, mənəviyyat və şəfqət, xeyirxah əməllər, inam və məhəbbət – həqiqi xoşbəxtliyə və harmoniyaya aparan yoldur". Söhbət insan anlamından gedirsə, bu məfhumun arxasında dayanan amillər ən böyük dəyərlərə yol açır.





Azərbaycanda uşaqların sağlam və gümrah böyümələri, onların Vətənə layiqli övlad kimi yetişməsi, mükəmməl təhsil almaları dövlətin daim diqqət mərkəzində saxladığı prioritet məsələlərdəndir. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva uşaqların xoşbəxt gələcəyi üçün bütün imkanlardan istifadə edir, bu sahəni daim diqqət mərkəzində saxlayır. Heydər Əliyev Fondunun bu sahədə gördüyü işləri isə sadalamaqla qurtaran deyil. Fondun prezidentinin təşəbbüsü ilə hazırlanmış "Uşaq evləri və internat məktəblərinin inkişafı Proqramı" çərçivəsində xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldıqları onlarla internat məktəbi və uşaq evləri əsaslı təmir edilmiş, ən müasir avadanlıqlarla təchiz olunmuşdur. Hətta, kimsəsiz uşaqlara ev şəraitinə uyğun mühit yaradılmışdır. Gənc nəslin təhsili və sağlamlığının qorunması Heydər Əliyev Fondunun fəaliyyətinin prioritet istiqamətlərindən biri olduğundan Fond ölkədə həyata keçirilən təhsil və səhiyyə islahatlarında xüsusi fəallıq nümayiş etdirir. Heydər Əliyev Fondunun bu sahədə həyata keçirdiyi tədbirlər isə birbaşa genefondun qorunmasına, bu sahədə mövcud problemlərin əsaslı həllinə yönəlmişdir. Məktəbəqədər hazırlıq müəssisələrinin, uşaq bağçalarının müasir standartlar səviyyəsində qurulması, onların maddi-texniki bazasının gücləndirilməsi Heydər Əliyev Fondunun diqqət mərkəzindədir. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində ölkəmizdə uşaq evi və internat məktəbi əsaslı təmir olunub və bu müəssisələrdə yaşayan uşaqların problemlərini daim diqqətdə saxlanılıb. Müasir tələblərə cavab verən uşaq evlərində inşa edilmiş hamam, üzgüçülük hovuzu, yay konsert meydançası, stadion, iclas, idman, rəqs salonları, həyətdəki yaşıllıqlar, uşaqların əl işləri muzey-sərgisi burada balacaların fiziki və əqli cəhətdən sağlam böyüməsi üçün hər cür şərait yaradıldığına, Fondun xeyirxah fəaliyyətinin bəhrəsinə əyani sübutdur.

"Təhsilə dəstək", "Diabetli uşaqlara ən yüksək qayğı" kimi layihələri Mehriban Əliyevanın bir qadın, ana, ictimai xadim kimi fəaliyyətində reallığa çevrilib.

*Ardı Səh. 4*



# Humanizmin və haqq-ədalətin ünvanı









**Mehriban xanım bütün fəaliyyəti dövründə xalqın maraqlarını əsas götürərək, ictimai, sosial layihələri ilə öz ətrafında böyük imic formalaşdırıb**

Əvvəli-Səh-3

### "TOLERANTLIĞIN ÜNVANI – AZƏRBAYCAN"

Milli-mənəvi dəyərlərin qorunması və dini ziyarətgahların yenidən qurulması prosesinə fəal surətdə qoşulan Heydər Əliyev Fondunun ölkəmizdə həyata keçirdiyi "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində ölkədə bir neçə dini ocağın təmiri və yenidən qurulması həyata keçirilmişdir. Bu sırada paytaxtın Buzovna qəsəbəsində "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində əsaslı surətdə yenidən qurulan Cümə məscidi də xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidində əsaslı təmir və yenidənqurma işləri aparılmış, Qəbələdə isə yeni məscid inşa olunmuşdur. Azərbaycanda bütün dövrlərdə, ictimai-siyasi quruluşdan asılı olmayaraq, müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanlar sülh, əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşayıblar. Bu gün də belədir. Müasir dünyamızda çoxkonfessiyalı və çoxmillətli Azərbaycan bu ənənələrə sadiqdir və bu, ən böyük sərvətlərdən biridir. Təsadüfi deyildir ki, son illər mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa töhfələrini verir. Müasir dövrümüzdə Heydər Əliyev Fondu, nəinki Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük əhəmiyyət verir. Fondun layihələrindən olan "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpası Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə bir daha ehtiva edir. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakombaların bərpasında əhəmiyyətli işlərə imza atmışdır. Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir və bu addım dinlər və mədəniyyətlərarası dialoqun daha bir parlaq nümunəsi olaraq tarixə yazıldı. Romanın belə nüfuzlu arxeoloji abidəsinin bərpasına töhfəsini verən Heydər Əliyev Fondu tarixi missiyasını həyata keçirmiş oldu. Heydər Əliyev Fondunun Fransanın Orn Departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım etməsi də "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində reallığa çevrilib.

Qeyd edək ki, Mehriban xanım Əliyevanın beynəlxalq səviyyədə gördüyü işlər cavabsız qalmamış, dünya dövlətləri, nüfuzlu təşkilatlar tərəfindən müxtəlif adlara, mükafatlara layiq görülmüşdür. Onun hər bir uğuru Azərbaycanın nailiyyəti, yüksəkliyidir. Fəaliyyəti dövründə əldə etdiyi bu nailiyyətlər Fondun qeyri-hökumət təşkilatı olaraq həyata keçirdiyi layihələri ilə təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə böyük nüfuz qazandığını göstərir. Gördüyü işlərində təvazökarlıq göstərir.

### BÖYÜK QAYIDIŞIN MÖHTƏŞƏM LAYİHƏLƏRİ

Heydər Əliyev Fondu ölkəmizin çətin zamanında xalqımıza dəstək oldu. Heydər Əliyev Fondu Azərbaycanda koronavirusun geniş yayılmasının qarşısının alınması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərə töhfə olaraq Koronavirusla Mübarizəyə Dəstək Fonduna 500 min manat vəsait köçürdü. Bununla yanaşı, Heydər Əliyev Fondu daim öz himayəsində saxladığı bir sıra müəssisələrə koronavirusla mübarizə sahəsində dəstək göstərib. 20illik fəaliyyəti dövründə əldə etdiyi bu və ya digər nailiyyətlər fondun qeyri-hökumət təşkilatı olaraq təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə böyük nüfuz qazandığını göstərir.

Mehriban xanım bütün fəaliyyəti dövründə xalqın maraqlarını əsas götürərək, ictimai, sosial layihələri ilə öz ətrafında böyük imic formalaşdırıb. 44 gün davam edən müharibədə Müzəffər Azərbaycan Ordusunun təcavüzkar Ermənistanı məğlub edərək, işğaldan azad etdiyi Vətən torpaqlarında bu gün həyata keçirilən tikinti-bərpa işlərində Mehriban xanım Əliyevanın da həyata keçidiyi layihələr töhfəsini verməkdədir. Böyük Qayıdışın möhtəşəm olacağına əminik və bu işdə Mehriban Əliyevanın payı müstəsna olacaqdır. Artıq bu işlərin ilkin addımlarını və reallaşan layihələri görürük. Heydər Əliyev Fondu məscidlərin təmirini öz üzərinə götürüb. Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan M.P. Vaqifin büstü öz əvvəlki yerinə qaytarılıb. Görülən işlər kifayət qədərdir. Damarlarında azərbaycanlı qanı qövr edən Böyük Ziyalının işığında Azərbaycanın hər bir bölgəsində əməyini, layihələrini görürük. Bu hər kəsi qürurlandırır.

Azərbaycanın çiçəklənməsi, beynəlxalq nüfuzunun artmasına böyük töhfələr verən Heydər Əliyev Fondunun gələcək fəaliyyətinin əsasında qeyd etdiyimiz məsələlərin daha da geniş bir planda həyata keçirilməsi dayanır.

*Nəzakət ƏLƏDDİNQIZI*

TƏHLİL

# İkiüzlülük və ikili standartlarla bağlı ETİRAF

***Avropa Şurasının prezidentinin, daha dəqiq desək, Çarlz Mişelin bu yaxınlarda Avropa İttifaqı siyasəti ilə bağlı səsləndirdiyi fikirlər diqqəti cəlb etməyə bilməz. Çünki onun səsləndirdiyi son fikirlər bir növ etiraf olaraq başa düşülür. Xüsusən də İspaniyanın "El Mundo" qəzetinə müsahibəsində Çarlz Mişelin söylədikləri onu deməyə əsas verir ki, Avropa Şurasının prezidenti Brüsseldə qərarların qəbulu zamanı ikili standartların tətbiq edildiyini rəsmən etiraf edir.***

## Avropa Şurasının rəhbəri tamamilə doğru etiraf edib və bunu Avropa da, Qərb də qəbul etməlidir

"Brüsseldə bəzən üzv dövlətlər arasında qərarların qəbulunda ikili standartlar tətbiq olunur. Mən həmişə hamını bərabərləşdirməyə çalışmışam və buna görə tənqidlərə də məruz qalmışam", deyə Avropa Şurasının rəhbəri bildirib. O, hətta xüsusilə vurğulayıb ki, Avropa Komissiyası siyasiləşmiş qurum ola bilməz və neytrallığa, eləcə də obyektivliyə hörmət etməlidir. Amma nə Mişelin, nə də bir başqasının iradına, yaxud da etirafına baxmayaraq, Avropa siyasətinin ideal olmaqdan uzaq olduğunu, həmçinin də Avropa İttifaqının artıq çoxdan ikili standartları qəbul etdiyini müşahidə edirik. Ən çox da Qərbin, Avropanın ikili standartları ilə dəfələrlə üzləşən məhz Azərbaycandır deyə bunu biz daha yaxşı bilirik və elə Mişelin etiraflarını da biz yaxşı başa düşürük. Hətta yeri gələndə dəyərləndiririk də.

Bilirik ki, ölkəmizə qarşı qərəzli, ədalətsiz münasibəti nəinki Avropada, hətta ABŞ kimi özünü dünyanın demokratiya ocağı olaraq göstərən dövlətdə belə hər zaman görmüşük və Ermənistanın Azərbaycan ərazilərini işğal etdiyi vaxtdan bu günə kimi mütəmadi olaraq belə ikili standartlar və haqsızlıqlar nümayiş etdirilməkdədir. Münaqişənin lap əvvəlində, ölkəmizin ərazilərini Ermənistanın işğal etdiyi illərdə belə Avropa bu fakta tamamilə məhəl qoymadan İrəvanın təcavüzünü pisləməyə qətiyyən tələsmədiyini də yaxşı xatırlayırıq. İndi öz ərazilərini deyil, qonşu ölkənin ərazilərini, Azərbaycanın Qarabağ iqtisadi rayonunu, özü də öz istəyi ilə tərk edən ermənilərə görə narahatlıqlarını ifadə edənlər, vurnuxanlar məhz öz ərazilərindən məcburi şəkildə, ölüm, işgəncə, əsirlik təhdidi ilə məcburi olaraq köçkün düşmüş bir milyondan artıq azərbaycanlının taleyinə görə nədənsə heç qətiyyən nə narahat olmuşdular, nə də buna reaksiya belə bildirməmişdilər. Öz xoşu ilə ərazilərimizi tərk edib Ermənistana yollanan 30 minə yaxın erməni əsillini 150 min nəfər kimi qələmə verən, onların guya qaçqınlıq vəziyyətində olduqlarına görə narahatlıqlarını ifadə edərək, ərazilərimizi tərk etdiklərindən bir neçə ay keçməmiş onlara milyonlarla vəsait ayıranlar düz 30 il ərazində, az qala əsrin üçdə birinə yaxın müddətdə azərbaycanlı köçkünlər üçün bir manat da ayırmaq fikrinə belə düşməmişdilər. Ötən əsrin sonlarında, 20-ci əsrin 90-cı illərində Avropanın da, Amerika Birləşmiş Ştatlarının da Azərbaycan xalqının faciəsini görməməyi üstün tutduğunu hər birimizi yaxşı görürdük. İndi biz bilirik ki, Çarlz Mişel tamamilə doğru etiraf edib və bunu Avropa da, Qərb də qəbul etməlidir.

## Avropanın, bütövlükdə kollektiv Qərbin ikili standartlarının açıq-aşkar təzahürü

Ötən əsrin sonlarında ölkəmizin ərazisinə silahlı basqınla soxulan ermənilər ərazilərimizi işğal etmək niyyəti ilə bizə təcavüz etdiyi zaman guya bunu nə görən, nə də başa düşən olmadı. Bir ölkənin silahlıları başqa bir ölkənin, qonşu ölkənin ərazisinə silahlı basqın etdiyini guya nə Avropa görmədi, nə də Qərb. Guya bu silahlı basqının qanunsuzluq olduğunu, beynəlxalq hüququn norma və prinsiplərinə zidd olduğunu nə Avropa, nə də Qərb dərk edə bilmədi. Gördülər də, dərk etdilər də, amma özlərini görməməzliyə vuraraq, səslərini çıxarmadılar. Ermənistanın silahlı qüvvələrinin törətdikləri vəhşiliklərə, vandallıqlara, soyqırımlara və bir çox insanlığa sığmayan hərəkətlərə qətiyyən reaksiya verilmədi. İşğalçı ölkənin silahlılarının qanunsuz hərəkətlərini, beynəlxalq hüquqa zidd olan addımlarını təsdiq edən sənədli materiallar, foto və video çəkilişlər ortada sübut kimi olsa da buna baxan və məhəl qoyan avropalı, amerikalı olmadı. Öz ərazimizdə bizə qarşı soyqırım siyasəti, etnik təmizləmə aparanlara gözün üstündə qaşın var deyən olmadı və heç şifahi olaraq belə qınanılmadı. Amma Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü, özü də öz ərazidində tam bərpa edən kimi ölkəmizi dərhal dırnaqarası "etnik təmizləmə" aparmaqda ittiham etdilər. Öz ərazilərində azərbaycanlıları silahlı basqınla qətlə yetirən Ermənistan silahlılarının törətdikləri faciələr yox, bir xalqın, bir dövlətin məhv olmaq təhlükəsi yox, qarlı dağ yolları ilə ayaqyalın canını götürüb gedən və buna görə də hətta ayaqları amputasiya olunan, kəsilən bir çox azərbaycanlıların 30 illik qaçqınlıq taleyi yox, öz istəkləri ilə Azərbaycan ərazisini tərk edən Qarabağ ermənilərinin taleyi kimləri isə narahat edirsə, bunun adı nə ola bilər və ümumiyyətlə bunun adını nə qoyaq? Bu, Avropanın, bütövlükdə kollektiv Qərbin ikili standartlarının açıq-aşkar təzahürü deyilmi? Bunun adı elə ikiüzlülük deyilmi? İndi Avropa Şurasının rəhbəri Çarlz Mişelin də məhz ikiüzlülük və ikili standartlarla bağlı dedikləri məhz bütün bunların fonunda tamamilə yerinə düşür və həqiqətən də etiraf olaraq qəbul edilməkdədir.

## Təşəkkür etməli halda, Borrelin ağız büzməsi ikiüzlülük və ikili yanaşmanın tətbiqi deməkdir

Azərbaycana münasibətdə ikili standartların təzahürünü təsdiq edən faktlara ən sonuncu misallardan biri olaraq, ötən ilin dekabrında Avropa diplomatiyasının rəhbəri Cozep Borrelin dedikləri göstərilə bilər. Borrelin utanmadan, çəkinmədən "münaqişələrin güc yolu ilə həllinin qadağan edilməsi ilə bağlı" təxribatçı bəyanatlarla çıxış etməsi özü ikili standartların tətbini sübut edən faktlardandır. Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi, öz ərazisində anti-terror tədbirləri keçirməsi, ərazilərini terrorçulardan təmizləməsi, təhlükəsizliyi təmin etməsi nəyə görə Avropa diplomatiyası rəhbəri tərəfindən qəbul edilən hesab olunmadığını başa düşmək olmur. Ərazilərimizi onillər boyu tərk etməyən, tərk etmələrinin vacibliyini diplomatik yolla başa salındıqda da başa düşməyən terrorçuların hərbi yolla ərazilərimizdən çıxarılması, bununla da 30 ilə yaxın müddətdə həll edilməyən münaqişənin həll edilməsi niyə "qadağan" hesab olunmalıdır axı? Torpaqlarımızı işğal edənlərin, bizə təcavüz edən terroristlərin, öz ərazilərimizdə bizə qarşı etnik təmizləmə aparanların, Azərbaycana məxsus olan ərazilərdə ətraf mühitə qarşı ciddi zərər vuranların, fauna və floranın məhv olması üçün bütün mümkün əməllərə əl atanların, azərbaycanlılara məxsus yurd-yuvaları viran qoyanların əməllərinin qarşısının alınması nə vaxtdan qanuna zidd, yaxud da ki, "qadağan" hesab olunub? Sadalanan bu qədər vəhşiliklərin qarşısının alınmasına görə Borrel təşəkkür etməli halda, buna ağız büzürsə, deməli, ikiüzlülük edir və bunun özü elə Avropanın ikili yanaşması, ikili standartlarının tətbiqinin daha bir nümunəsi, daha bir isbatıdır. İndi bütün bunları görən Avropa Şurası rəhbəri sadəcə olaraq həmin ikiüzlülüyü və ikili standartların mövcudluğunu etiraf edir və bunu da bütün dünya ictimaiyyəti çox yaxşı başa düşür.

## Erməni silahlı qüvvələrinin Azərbaycan ərazisində qanunsuz mövcudluğuna 30 il dinməyənlərin "güc" tətbiqi ilə bağlı sayıqlaması ikiüzlülükdür

Soruşmaq ayıb olmasın, ermənilər ötən əsrin sonlarında Azərbaycan torpaqlarına soxulanda, təcavüz edəndə, ərazilərimizi işğal edəndə, soyqırım və etnik təmizləmə siyasəti yürüdəndə, insanlıq dramı kimi yadda qalan Xocalı soyqırımına imza atanda və bunu fəxrlə etiraf edəndə, həmin faciəyə oxşar daha bir neçə soyqırımı törədəndə, silahlı basqınlarla və ölüm təhdidi



ilə azərbaycanlıları öz yurd-yuvalarından didərgin salanda niyə Jozep Borrel ağzına su alıb susurdu? Borrel guya bilmirdi ki, ermənilər Azərbaycan ərazilərinə soxularaq, dediyi həmin o gücü tətbiq etməklə bütün vəhşilikləri törədiblər? İndi Azərbaycanın öz ərazilərini terrorçulardan təmizləməsinə güc tətbiqi və bunun "qadağan" hesab olunduğunu deyən Avropa diplomatiyası rəhbəri bəs niyə ermənilərin başqa dövlətin, başqa ölkənin ərazisinə hərbi təcavüz etməsini güc tətbiqi adlandırmırdı və bununla əlaqədar da qadağan ifadəsini, kəlməsini işlətmirdi? Axı bunlar heç müqaisəyə belə gələcək deyillər. Mübarizənin biri öz ərazilərində təhlükəsizliyin, sabitliyin, ərazi bütövlüyünün, haqqın, ədalətin təmin edilməsi üçün olduğu halda, digəri, yəni ermənilərin etdikləri birbaşa təcavüz, işğal, soyqırım, etnik təmizləmə faktı olaraq göz qabağında idi və indi Borrelin belə sayıqlaması ikiüzlülük, ikili standartların tətbiqi deyilmi? Düz 30 ilə yaxın müddət ərzində bircə dəfə də olsa Borrell erməni silahlı qüvvələrinin Azərbaycan ərazisində qanunsuz mövcudluğu faktorunu pisləmədiyi halda, indi, Azərbaycan öz ərazilərində BMT-nin məlum qətnamələrinin icrasını öz üzərinə götürərək, terrorçuları, Borrelin dediyi həmin o "güc" mövcudluğunu aradan qaldırdığı zaman Avropa diplomatiyası rəhbərinin yadına güc tətbiqi ilə bağlı nə isə sayıqlamaq hardan düşüb? Harda idi 30 il müddətində həmin o adam? Yoxsa, erməni separatizmini açıq şəkildə dəstəklədiyinə görə başı bərk qarışıq olub? Bəlkə, Brüssel, Vaşinqton və Parisin məhz Azərbaycan ərazisində "boz zona" saxlamaq niyyətlərinin gerçəkləşməsi üçün bərk məşğul olub və indi də rəsmi Bakı məhz BMT-nin qeyd etdiyimiz dörd qətnaməsini təkbaşına həll etməsindən sonra yuxusu ərşə çəkilib və planlarının məhv olmasına görə ağzını "köndələn qoyub" sayıqlamalı, ikiüzlülük etməli olub? Deməli, həqiqətən də Avropa Şurası rəhbəri öz etirafını bütün bunları nəzərə alaraq edib və indi onu avropalılar da, amerikalılar da qətiyyən qınaya bilməzlər.

## Azərbaycan həqiqətlərini, əsl reallıqları Qərbin də, Avropanın da hələ çox rəsmiləri etiraf etməli olacaqlar

Qərb uzaq başı yenə də öz ikili standartlarından çıxış edərək, ermənilərə hansısa yardım haqqında düşünə bilər. Əslində, son zamanlar elə buna da əl atılıb. Belə ki, 66 amerikalı konqresmenin bu yaxınlarda ABŞ Nümayəndələr Palatasının Təsisatlar Komitəsini "Dağlıq Qarabağdan məcburi köçkünlərə" ABŞ-ın hərbi yardımını etməsi üçün 200 milyon dollar ayırmağa çağırması Qərbin ikili standartlarının göstəricisi, növbəti təzahürü və isbatıdır. Düz 30 il ərazində Azərbaycan ərazilərini, qonşu dövlətin ərazilərini Ermənistan tərəfi, erməni silahlı qüvvələri, qanunsuz şəkildə nəzarətdə saxladıqları zaman öz yurd-yuvalarından məcburi köçkün düşmüş bir milyondan çox azərbaycanlıya bircə milyon vəsait ayırmağı bircə dəfə də olsa təklif etməyənlərin indi şişirdilərək 100 min deyilən, amma cəmi 30 min olan və heç də köçkün olmayan, könüllü şəkildə öz müvəqqəti yaşayış yerlərini tərk edənlərə 200 milyon ayrılması təklifinə ikiüzlülükdən, ikili standartlardan başqa nə ad qoymaq, nə ad vermək olar? Uzun illər erməni işğalı zamanı hayların beynəlxalq hüququ kobud şəkildə pozaraq, qonşu dövlətin ərazisini nəzarətdə saxladıqları dövrdə Amerika Konqresi Ermənistana qarşı sanksiyaların tətbiqi təklifi ilə qətiyyən çıxış etmədiyi halda, əksinə, məhz 1992-ci ildə Ermənistan tərəfi, erməni silahlıları Xocalıda soyqırım törədib bəşəri cinayətə imza atanda, Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanı işğal edəndə ABŞ ölkəmizə qarşı 907 saylı düzəliş qəbul etdisə, bunun adı ikiüzlülük və ikili standartların tətbiqidir. İndi buna don geyindirmək yox, elə məhz Avropa Şurasının rəhbəri Çarlz Mişelin etdiyi kimi etiraf yaraşır. Artıq bütün dünya etiraf etməlidir ki, Azərbaycana qarşı ədalətsiz yanaşma var. Etiraf edilməlidir ki, rəsmi Bakının öz hüquqları çərçivəsində, beynəlxalq hüququn norma və prinsiplərini pozmadan öz milli maraqlarını təmin etməsinə qarşı Qərb, Avropa qısqanclıqla yanaşır. O da etiraf edilməlidir ki, erməni maraqlarından çıxış edərək Azərbaycanın haqları qətiyyən nəzərə alınmır və reallıqlar görməməzliyə vurulur. Ədalətin bərpası, dünya düzənində nizam-intizam o zaman olacaq ki, xalqlara məxsus olan əsl həqiqətlər, eyni zamanda da Azərbaycan həqiqətləri, əsl reallıqlar səmimi şəkildə etiraf ediləcək və Qərb də, Avropa da ikiüzlülükdən, ikili standartların tətbiqindən əl çəkərək doğrunun, düzün tərəfində olacaq. Görünür, Avropa Şurası rəhbəri Çarlz Mişel də etiraflar etdiyi zaman məhz bunu nəzərə alıb. Ümid edirik ki, Azərbaycan həqiqətlərini, əsl reallıqları Qərbin də, Avropanın da hələ çox rəsmiləri etiraf etməli olacaqlar və Çarlz Mişelin etirafı onlar üçün bir dərs də sayıla bilər.

***İnam Hacıyev***

# Ulu Öndər Heydər Əliyev irsi və çağdaş Azərbaycanımız



***Düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanı dünya birliyinin fəal üzvünə çevirən, bugünkü uğurlarımız üçün möhkəm baza yaradan Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının tarxində böyük rolu vardır. Onun hər addımı ölkəmizin inkişaf tarixinə biri-birindən əhəmiyyətli uğur səhifələrini yazıb. Onun ideyaları hər bir azərbaycanlı üçün dəyərlidir. Böyük Şəxsiyyət bütün varlığı ilə sevdiyi Azərbaycanı, xalqını, onun dövlətçilik tarixini çox çətin sınaq və imtahanlardan çıxarıb.***

Ulu Öndər Heydər Əliyev Azərbaycanı bir dövlət, xalqımızı isə bir millət kimi tarixin ağır və sərt sınaqlarından uğurla çıxarıb. Azərbaycan dövlətini dünya dövlətləri arasında irəli çıxaran, ölkəmizi parçalanmaq təhlükəsindən xilas edən, respublikamızın inkişafına möhkəm zəmin yaradan Ulu Öndər Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi. Ulu Öndər Heydər Əliyev çıxışlarının birində belə deyirdi: "Azərbaycan dövləti demokratik bir cəmiyyət yaradıbdır. Bu demokratik cəmiyyətdə demokratiyanın tələb etdiyi bütün amillər mövcuddur: söz azadlığı, mətbuat azadlığı, insanın bütün azadlıqları, vicdan azadlığı, ayrı-ayrı siyasi təşkilatlar yaratmaq, partiyalar yaratmaq, tamamilə sərbəstlik - yeni demokratiyanın tələblərinə uyğun olan bütün amillər Azərbaycanda bu gün mövcuddur. Bəlkə də ölkəmizi bizimlə bərabər müstəqillik əldə etmiş başqa ölkələrlə müqayisədə, yeni Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrlə müqayisə edəndə burada bu azadlıqlar daha da çox yer alıbdır. Əgər elə olmasaydı Azərbaycanda bu qədər siyasi partiya olmazdı, Azərbaycanda mətbuat bu qədər azad olmazdı, qəzetlər bu sayda olmazdı və qəzetlərə, mətbuata bu qədər azadlıq verilməzdi Bunlar hamısı demokratiyanın Azərbaycanda mövcud olmasıdır".

## HƏR BİR AZƏRBAYCANLI ÜÇÜN DƏYƏRLİ İDEYALAR

Ümummilli Liderin siyasi zəkasının məhsulu olan qüdrətli Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu sisteminin formalaşmasına nail olunub. Müasir Azərbaycanda vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış, elm, təhsil və mədəniyyətin inkişafı, məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın qazandığı böyük uğurlar, məhz Ulu Öndər Heydər Əliyev dühasının bəhrəsidir. Ümummilli Lider Heydər Əliyevin qətiyyəti və uzaqgörənliyi sayəsində Azərbaycanda ictimai-siyasi sabitliyə nail olunub, dövlətçiliyimiz məhv olmaq təhlükəsindən xilas edilib. Düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanı dünya birliyinin fəal üzvünə çevirən, bugünki uğurlarımız üçün möhkəm baza yaradan Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının tarxində böyük rolu vardır. Onun hər addımı ölkəmizin inkişaf tarixinə biri-birindən əhəmiyyətli uğur səhifələrini yazıb. Onun ideyaları hər bir azərbaycanlı üçün dəyərlidir. Böyük Şəxsiyyət bütün varlığı ilə sevdiyi Azərbaycanı, xalqını, onun dövlətçilik tarixini çox çətin sınaq və imtahanlardan çıxarıb.

Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərlik etdiyi dövrdən etibarən, Azərbaycanın iqtisadi inkişafının əsaslarının yaradılması, zəngin iqtisadi potensialının ölkənin gələcək inkişafına və xalqın rifahının yüksəlməsinə yönəldilməsi prosesinə başlanılıb. Ulu Öndər Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə rəhbərlik etdiyi dövr ərzində respublikanı geridə qalmış və yalnız xammal mənbəyi sayılan aqrar respublikadan inkişaf etmiş sənaye respublikasına çevirməyə müvəffəq olub. Kənd təsərrüfatının və sənayenin, iqtisadiyyatın digər sahələrinin inkişafında, sosial məsələlərin həllində və əhalinin rifah halının yaxşılaşdırılmasında böyük irəliləyiş əldə edilib.

## HÜQUQİ DÖVLƏT QURUCULUĞU

1990-cı illərin əvvəlləri Azərbaycan dövrünün ağır günlərini yaşayırdı. Bir tərəfdən, separatçı qüvvələr və onların himayədarları ölkəmizi parçalayır, digər tərəfdən, iqtisadiyyatımız tamamilə dağılmışdır. Şəhər və kəndlərimiz bir-birinin ardınca işğal edilirdi. Müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan və bir-birini əvəz edən səriştəsiz siyasi qüvvələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq təhlükəli böhran vəziyyətinə çatdırmışdılar. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Xalqı bütövlükdə, uçuruma sürükləyən məqamlar istər ölkə daxilində, istərsə də xaricində onun sütunlarını zəiflətməyə başlamışdı. İqtisadiyyatımız böhranlı vəziyyətə gəlib çatmış, işsizlik, demək olar ki, kütləvi hal almışdı. Bunun nəticəsi olaraq əhalinin yaşayış səviyyəsi minimum səviyyəyə çatmışdı. Ölkənin ictimai-siyasi həyatında anarxiya, xaos hökm sürürdü. 15 İyun 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəni düçar olduğu vəziyyətdən çıxardı. Ölkəmiz demokratiya, hüquqi dövlət quruculuğu yolu ilə irəlilədi, xalq birliyi yarandı.

## "1994-CÜ İLDƏN AZƏRBAYCAN DÖVLƏTİ ÖZÜNÜN YENİ NEFT STRATEGİYASINI HƏYATA KEÇİRİR"

15 iyun 1993-cü il tarixində baş verən hadisə - Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın müstəqil həyatının yeni səhifələrini yazdı. Tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu və dövlətçiliyimizi yox olmaq təhlükəsindən qurtardı. Ulu Öndər Heydər Əliyev respublikanın müstəqilliyini qorudu, ölkədə tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Müstəqil Azərbaycanın Qurucusu Heydər Əliyev ən yeni tariximizin çətin anlarından şərəflə çıxaraq, müstəqilliyimizin gerçəkləşməsində və ictimai-siyasi həyatımızın bütün istiqamətləri üzrə inkişafın təmin edilməsində qarant rolunu oynadı. Ölkəmizdə iqtisadi sabitliyin təmin edilməsi və tənəzzülə uğramasının qarşısının alınması, yeni dövrün tələblərinə uyğun tərzdə islahatların həyata keçirilməsi önəmli idi ki, Heydər Əliyev də müdrikcəsinə dövrün irəli sürdüyü bu tələbləri müstəqil Azərbaycan dövlətində ardıcıl şəkildə həyata keçirdi və ölkəmizdə yeni iqtisadi mühit, azad bazar iqtisadiyyatı formalaşdı. Sonrakı dövrlərdə Azərbaycan vətəndaşlarının sosial durumunun yaxşılaşdırılması ilə bərabər, dövlət quruculuğu siyasətinin ardıcıl surətdə həyata keçirilməsi, Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artırılması istiqamətində addımlar atıldı.1994-cü ildə "Əsrin Müqaviləsi"nin imzalanması milli iqtisadi inkişafın təməlini qoydu. Əlbəttə, "Əsrin Müqaviləsi"nin imzalanması tarixi hadisə və dönüş nöqtəsi idi.

## "KONSTİTUSİYA YARATMAQ ÜÇÜN ŞÜBHƏSİZ Kİ, TARİXİ KEÇMİŞİMİZƏ NƏZƏR SALMALIYIQ"

Ulu Öndərin Azərbaycan dövlətçiliyi qarşısında tarixi xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılması oldu. Belə ki, 1995-ci ildə qəbul olunmuş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını formalaşdırdı. Dahi Öndər Heydər Əliyevin müəllifliyi ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu ali Sənəd müstəqil Azərbaycan Konstitusiyası kimi tarixə yazıldı. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, bilavasitə təşəbbüsü və müəllifliyi ilə hazırlanmış ilk milli Konstitusiya çağdaş dünyanın ən mütərəqqi konstitusiyalarından biri olmaqla, suveren dövlətçilik tariximizdə yeni mərhələ açdı, dövlət quruculuğu, iqtisadiyyat və ictimai-siyasi həyatda dinamik inkişafa güclü təkan verdi. 1995-ci il noyabrın 12-də Azərbaycan xalqı çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, ümumxalq səsverməsi - referendum yolu ilə özünün ilk milli Konstitusiyasını qəbul edərək, Ana Qanunumuzda qanunçuluğu ideya və dəyərlər sistemi kimi təsbit etmiş oldu.

Qeyd edək ki, Milli Məclisin 1995-ci il 2 may tarixli qərarı ilə Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın tərkibi təsdiq olundu. Yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın ilk iclası 1995-ci il iyunun 5-də keçirilib. Həmin iclasda çıxış edən Ulu Öndər Heydər Əliyev qeyd edib ki, müstəqil Azərbaycanın ilk Konstitusiya layihəsinin hazırlanması olduqca mühüm bir tarixi hadisədir: "Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik".

## YENİ GEOİQTİSADİ GÜC MƏRKƏZİ MODELİ

1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açdı. Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkəyə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan siyasi və iqtisadi müstəqilliyini möhkəmləndirib, dövlətçiliyini inkişaf etdirib, demokratik dəyərlərə yiyələnib və özünün liberal prinsiplərə əsaslanan iqtisadi modelini yaradıb. Respublikamız, eyni zamanda, bütün dünyaya nümunə ola biləcək yeni geoiqtisadi güc mərkəzi modelini yaradıb. Azərbaycan qarşıdakı onilliyin inkişaf istiqamətlərini müəyyənləşdirib. Qarşıdakı dövrün layihələri ümidverici və irəliyə baxmaq üçün stimulvericidir.

Azərbaycanda bu gün müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində Ümummilli Lider Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır. Onun siyasi xadim olaraq yürütdüyü siyasətin başlıca qayəsi Azərbaycanı hər bir vətəndaşının təhlükəsizliyini qoruya biləcək qədər qüdrətli dövlətə çevirmək olmuşdur. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinə sadiq qalaraq, müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. Azərbaycan durmadan yüksəlir, inkişaf edir və uğurlar qazanır.

## YENİ REALLIQLARIN MÜƏLLİFİ AZƏRBAYCAN

2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub. Müasir yanaşmalar və milli iqtisadi prioritetlər əsasında mükəmməl islahatlar konsepsiyasının reallaşdırılması nəticəsində Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri sırasındadır. Bu gün Azərbaycanı 1990-cı illərin əvvəli ilə müqayisə etmək mümkün deyil. Əgər Azərbaycanın müstəqilliyinin ilk illərində baş verən hadisələrin qarşısı alınmasaydı və Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı olmasa idi, əlbəttə ki, bu günün Azərbaycan reallıqlarından belə söhbət açıla bilməzdik.

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsinə də geniş imkan yaratmış oldu. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açdı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, bu gün Azərbaycan Vətən müharibəsində döyüş meydanında öz sözünü demiş oldu. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu döyüş meydanında ermeniyə gücünü göstərdi. Xalq-iqtidar birliyi bizi zəfərə, qələbəyə apardı. 30 ildən bəri düşmən əsarətində olan torpaqlarımız azadlığına qovuşmuşdır. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. Əlbəttə ki, bu uğurların təməlində Dahi Şəxsiyyət Heydər Əliyevin düşünülmüş siyasəti dayanır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Tolerantlıq və dözümlülük mərkəzi – Azərbaycan



**_Prezident İlham Əliyev: "Xalqımıza xas zəngin tolerantlıq ənənələrinin, multikultural dəyərlərin təbliği və təşviqi ölkəmizdə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biridir"_**

Azərbaycanın bütün xalqların, bütün səmavi dinlərə tapınanların azad yaşadığı bir dövlət olması ölkəmizi tolerantlıq, dözümlülük mərkəzinə çevirib. Çağdaş dünyamızda Azərbaycanda onlarla milli azlığın nümayəndəsi - rus, ukrayn, tat, kürd, belorus, talış, yəhudi, türk, alman, ləzgi, tatar, avar, gürcü, saxur, udin və s. yaşayır və onlar öz dillərindən istifadə edir, maddi-mənəvi mədəniyyətlərini qoruyub saxlayır, özlərinin milli-mədəni birliklərini, assosiasiyalarını və ittifaqlarını yaradırlar. Belə təşkilatlardan Talış Mədəni Mərkəzi, Kürd Mədəni Mərkəzi (Ronai), Ləzgi Mədəni Mərkəzi (Samur), Ləzgilərin Mifologiyasını Öyrənən Mərkəz, "Saxur" Mədəni Mərkəzi, Şeyx Şamil adına Avar Cəmiyyəti, Udinlərin "Orayin" Mədəni Mərkəzi, tatarların "Azəri" Mərkəzi, Buduq Mədəni Mərkəzi, Azərbaycan Slavyanlarının Mədəni Mərkəzi, Rus İcması Cəmiyyəti, Xınalıq Mədəni Mərkəzi, Azərbaycan Tatlarının İcması, Azərbaycan Gürcülərinin Cəmiyyəti, Azərbaycan Ukraynalılarının Cəmiyyəti, Azərbaycan Avropa Yəhudilərinin İcması, Almanların Milli - Mədəni Cəmiyyəti və s. göstərmək olar. Bütün xalqların nümayəndələri öz ayinlərini, milli bayramlarını sərbəst şəkildə yerinə yetirirlər. "Bu gün Azərbaycan Respublikası müxtəlif dinlər və etiqadlar arasında qarşılıqlı hörmət və etimad mühitinin, demokratik birgəyaşayış prinsiplərinin mövcud olduğu unikal bir məkandır və dünyada sivilizasiyalararası münasibətlərin inkişafına mühüm töhfələr verir. Cəmiyyətimizdə dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəsin mədəni özünüifadəsi üçün bərabər imkanlar yaradılmışdır. Təqdirəlayiq haldır ki, ölkəmizin bütün etnik və dini azlıqları, o cümlədən xristian vətəndaşlarımız ictimai-siyasi həyatın bütün sahələrində yaxından iştirak edir, Azərbaycanın tərəqqisi və çiçəklənməsi naminə vətəndaşlıq borcunu layiqincə yerinə yetirirlər". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pasxa bayramı münasibəti ilə Azərbaycanın pravoslav xristian icmasını təbrikində bildirib: "Qədim dövlətçilik tarixinə malik olan Azərbaycanda ayrı-ayrı xalqların və etiqadların mənsubları yüz illərdir ki, sülh və əmin-amanlıq şəraitində yaşayır, heç bir ayrı-seçkiliyə məruz qalmadan dil və mədəniyyətini, etnik-mədəni özünəməxsusluğunu qoruyub saxlayırlar. Xalqımıza xas zəngin tolerantlıq ənənələrinin, multikultural dəyərlərin təbliği və təşviqi ölkəmizdə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biridir".

## BİRGƏYAŞAYIŞ MODELİ

Azərbaycan müstəqillik illərində dövlət dini azlıqların hüquqlarının qorunması və təminatı sahəsində çox mühüm və ciddi addımlar atıb. Müxtəlif dini mənsubiyyətə malik insanlar cəmiyyətimizin ayrılmaz tərkib hissəsi olaraq dövlətin diqqət, qayğı və himayəsini eyni dərəcədə üzərlərində hiss edirlər. Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma, milli həmrəylik şəraitində yaşamaları üçün bütün şərait yaradılıb. Sosial bir hadisə olan tolerantlıq cəmiyyətdə əmin-amanlıq, bəşəriyyətdə isə sülh deməkdir. Təbii ki, tolerantlıq mühitinin olması cəmiyyətdə bərabərliyin, demokratiyanın, tərəqqinin, sosial rifahın, başqa sözlə, ədalətin bərqərarı deməkdir. Müxtəlif siyasi, iqtisadi və coğrafi şəraitlərdə yaşayan xalqların ədalətə çıxışı məhz ilk növbədə çoxmədəniyyətliliyin təmin edilməsindən asılıdır. Bir sözlə, Azərbaycan bu sahədə dünyaya örnək bir dövlət kimi özünü təsdiqləyə bilib.

Azərbaycan Prezidenti İlham Əliyev yürütdüyü siyasət dini konfessiyaların dinc yanaşı yaşamasını, qarşılıqlı əlaqəsini, müstəqil Azərbaycanın bütövlüyü, inkişafı və firavanlığı uğrunda birgə səy göstərmələrini təşviq edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə İslam, xristian və digər səmavi dinlərin mədəniyyət nümunələri olan tarixi-memarlıq abidələrinin, məscidlərin, ziyarətgahların, müqəddəs dini sitayiş, inanc yerlərinin təmiri və bərpası ilə bağlı görülən işlər deyilənləri bir daha təsdiqləyir. Dövlət başçısı İlham Əliyevin çıxışlarının birində qeyd etdiyi kimi, biz nəinki ölkə daxilində millətlərarası və dinlərarası münasibətləri ən yüksək səviyyədə tənzimləyirik, həll edirik, biz dünyaya nümunə də göstəririk: "Hesab edirəm ki, biz bu nümunəni göstərərək, başqa yerlərə də öz təsir imkanlarımızı genişləndiririk".

## TOLERANT MÜHİTİN REAL İFADƏSİ

Azərbaycanda bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir. Ölkəmizdə 2250-dən artıq məscid mövcuddur, eləcə də 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Bundan əlavə, Zaqatala və Balakən rayonlarında 127 hücrə vardır ki, onların 115-də Ramazan ayında və dəfn mərasimlərində ayin icra olunur. Ölkə ərazisində 23 xristian dua evi, 1 bəhai, 1 krişna ibadətgahı mövcuddur. Bununla yanaşı, hazırda Azərbaycanda dövlət qeydiyyatına alınmış 942 dini qurum fəaliyyət göstərir. Onlardan 907-si İslam, 35-i qeyri-islam təmayüllü (24-ü xristian, 8-i yəhudi, 2-si bəhai və 1-i krişna şüuru) dini qurumlardır. Ölkə başçısının göstərişi ilə bütün əsas dini abidələr təmir olunub. Dünyanın ən qədim məscidlərindən biri olan, 743-cü ildə inşa edilmiş Şamaxı Cümə məscidi yenidən qurulub. Xristian dini abidələri, alban kilsələri, o cümlədən Nic qəsəbəsindəki kilsə, Kiş kilsəsi təmir edilib. Tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin qorunması, həmçinin dini ziyarətgahların, maddi-mədəniyyət abidələrin bərpası və mühafizəsi daim diqqət mərkəzində saxlanılır.

Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin məlum Sərəncamı ilə paytaxtımızda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradıldı. Azərbaycanda mövdud olan ənənələrin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi ilə 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncamı ölkəmizdə multikultural mühitə olan münasibətin daha bir real ifadəsinə çevrildi. Prezident İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı əsasında Azərbaycan İlahiyyat İnstitutunun yaradılması xalqın tarixi ənənələrinə söykənən dini-mənəvi mühitin qorunub saxlanılması, inkişafı və dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı milli kadrların hazırlanması baxımından səmərəli addımlardan biri olub.



Dövlət tərəfindən multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılması istiqamətində həyata keçirilən multikulturalizm siyasəti və bu istiqamətdə reallaşan tədbirlər dünya dövlətləri üçün nümunəyə çevrilib. Bu gün ölkəmizdə bütün millətlərin və dinlərin nümayəndələri tam qarşılıqlı anlaşma, milli həmrəylik şəraitində yaşaması üçün bütün şərait yaradılıb. Ölkəmizdə heç bir millətin, milli və ya dini azlığın nümayəndəsinə onların dini mənsubiyyətlərinə görə başqalarından üstün olmaq kimi ideyaları aşılamaq yolverilməzdir.

## DİNİ ETİQADIN, DİL VƏ MƏDƏNİYYƏTİNİ İNKİŞAFI ÜÇÜN DEMOKRATİK MÜHİT

Azərbaycanda dövlətin dəstəyi hesabına sinaqoqlar, məscidlər, kilsələr tikilib və tikilməkdədir. Ölkəmizdə qədim zamanlardan müxtəlif dini etiqadların, o cümlədən müsəlmanların, yəhudilərin və xristianların sülh və əmin-amanlıq şəraitində birgə yaşaması hər kəsə bəllidir. Son illər qloballaşan dünyamızda müxtəlif bölgələrdə dini radikalizm, terrorizm, dözümsüzlük və ksenofobiya kimi halların artdığı dövrdə Azərbaycan özünəməxsus tolerantlıq təcrübəsi ilə beynəlxalq ictimaiyyət üçün uğurlu bir model təqdim edir. Hər bir dinin nümayəndələri rahat yaşayır, milli bayramlarını qeyd edir, öz dilində təhsil almaq imkanına malikdirlər. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin vurğuladığı kimi, bu gün dünyada nümunəvi tolerantlıq örnəyi, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınan Azərbaycanda tarixən dinlər əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərmiş, fərqli mədəniyyətlərin təmsilçiləri olan ayrı-ayrı xalqlar və etnik icmalar ümumi Vətən sevgisi, azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birlik və həmrəylik nümayiş etdirmişlər: "Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub-saxlanılması, multikulturalizmin dəstəklənməsi və təşviq edilməsi müasir mərhələdə həyata keçirdiyimiz dövlət siyasətinin başlıca məqsədlərindən biridir. Ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli-mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub-saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şərait təmin edilmişdir".

Ölkəmizdə mövcud olan vəziyyət, reallıqlar dövlət siyasətinin məntiqi nəticəsidir.

Azərbaycan tolerant ölkə olaraq dünyada tanındığı bir zamanda ermənilər 30 ilə yaxın işğal altında olan dini abidələrimizi dağıtmış, viran qoymuşdular. "Azad edilmiş bütün torpaqlarda bizim tarixi, mədəni, dini irsimiz ermənilər tərəfindən dağıdılıb, təhqir edilib, sökülüb", - deyə Prezident çıxışlarının birində bildirmişdir.

Azərbaycanın işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Arxeoloji irsin mühafizəsi haqqında" Avropa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun konvensiyasına zidd olsa da işğal altında və Ermənistanda qalan Azərbaycan mədəniyyət abidələrinin əksəriyyəti məhv edilib. Bütün bunlara baxmayaraq, Azərbaycan dağıdılmış, talan edilmiş məkanları, tarixi abidələrimizi bərpa edəcək. Erməni vandalları xalqımıza məxsus olan bütün abidələr dağıdıb, yerlə-yeksan ediblər. İşğal altındakı torpaqlarımızda təqribən 403 tarixi dini abidə olub ki, onlardan 67-i məscid, 144-ü məbəd, 192-i ziyarətgahdır. 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Ermənilərin əxlaqsızlıq, mənəviyyatsızlığının məntiqi olaraq Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla simasız, rəzil olduqlarını göstərmiş oldular. Bu azmış kimi Zəngilan rayonunda olan məscidlərdən də bu məqsədlə istifadə ediblər.

Artıq Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayıb. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçirilir.

**_Nəzakət ƏLƏDDİNQIZI_**

***Gürcüstanın paytaxtı Tbilisidə "xarici agentlər haqqında" qanun layihəsinə qarşı etiraz edənlərin yeni mitinqləri başlayıb. Aksiya iştirakçıları parlamen tərəfindən artıq qəbul eilmiş qanunun ləğvini istəyir və bunu insan azadlığına təhdid olduğunu deyirlər. Xarici mənbələrdən maliyyələşən QHT sektorunun hakimiyyətin işinə ziyan vurduğunu, dövlətçiliyə qarşı təhlükə yaratdığını əsas gətirən iqtidar buna son qoymağın yolunu qanunun qəbulunda görüb. Qarşı tərəf isə öz fikrində qəti olduğunu, qanun geri götürülməyənə qədər mübarizəni davam etdirəcəklərini deyib.***



# Yol ayrıcında

## Gürcüstan Avropaya, yoxsa hara üz tutacağını dəqiqləşdirmək istəyir




Etirazçılar Mziuri parkının yaxınlığındakı Qəhrəmanlar Meydanı ərazisinə toplaşıblar. "Rustavi 2" telekanalı dünən axşam saatlarında verdiyi açıqlamada bildirib ki, polis meydanda nəqliyyatın hərəkətini əngəlləməyə çalışan bir neçə nəfəri saxlayıb. Tbilisi həyatının məlumatına görə, Moskva vaxtı ilə saat 21:00-a qədər etirazçılar meydanın yaxınlığında avtomobillərin hərəkətini tamamilə dayandıra biliblər. Telegram kanalı tərəfindən yayımlanan videolardan görünür ki, meydana izdiham toplaşıb, insanların çoxu Gürcüstan bayraqları ilə olub.

"TV Pirveli" telekanalı xəbər verir ki, etirazçılar Kür çayının hər iki sahilindən hərəkətə keçməyi planlaşdırır, sol sahildə Qəhrəmanlar meydanı yerləşir. İddia olunur ki, nəqliyyatın bağlanması səbəbindən dayanan avtomobillərin sürücüləri də etirazçılara qoşulmağa başlayıb. "Tbilisi life" həmçinin bildirir ki, aksiyanın başladığı ərazidə polis əməkdaşları az olub, onlar aksiyanın lap əvvəlində bir neçə nəfəri saxlaya biliblər.

Gürcüstanda "Xarici təsirin şəffaflığı haqqında" qanunun ölkə parlamentində müzakirəsi ilə bağlı etirazlar davam edir. Bir gün əvvəl, mayın 1-də qanun ikinci oxunuşda qəbul edilib. Parlamentin iclası zamanı binanın yaxınlığında etiraz aksiyası keçirilib. Etirazçılar parlamentin qapısı önündə quraşdırılan səddi yarmağa çalışıblar. Polis və təhlükəsizlik qüvvələri etirazçılara su şırnaqları və gözyaşardıcı qazla dağıdıb. Gürcü mediası da etirazçılara rezin güllələrin atıldığını bildirib. Xarici agentlərlə bağlı layihə apreldə yenidən baxılmaq üçün təqdim edilib. Gürcüstan müxalifəti layihəni Rusiyanın "xarici agentlər haqqında" qanununun analoqu adlandırıb. Bu barədə baş nazir İrakli Kobaxidze bildirib. BMT-nin İnsan Haqları üzrə Ali Komissarı Volker Türk deyib ki, Gürcüstan hakimiyyəti ölkədə etirazlara səbəb olan xarici agentlərlə bağlı qanun layihəsini geri götürməli və həmvətənləri ilə dialoqa getməlidir. O, nümayişlərin təşkilatçılarını dinc davranmağa və zorakılığa əl atmamağa, polisi isə etirazçılara qarşı vəhşilik hallarını araşdırmağa çağırıb. "Gürcüstan hakimiyyətini bu qanun layihəsini geri götürməyə və vətəndaş cəmiyyəti və media da daxil olmaqla dialoqa başlamağa çağırıram. Cənab Türk bəyanatında bildirib ki, xaricdən maliyyə alan QHT və medianın "xarici gücün maraqlarına uyğun fəaliyyət göstərən təşkilatlar" kimi qələmə verilməsi ifadə və birləşmək azadlığı hüquqlarına ciddi təhlükə yaradır.

Qeyd edək ki, "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsi apreldə yenidən baxılmaq üçün təqdim edilib. Mayın 1-də qanun ikinci oxunuşda qəbul edilib. Parlamentin iclası zamanı binanın yaxınlığında etiraz aksiyası keçirilib. Polis və təhlükəsizlik qüvvələri etirazçıları su şırnaqları və gözyaşardıcı qazla dağıdıb. Baş nazir İrakli Kobaxidze bildirib ki, hakim partiya bütün narazılıqlara baxmayaraq qanunu qəbul edəcək. Bu arada, Baş nazir ABŞ-a getməkdən imtina edib, çünki Amerika tərəfi xarici agentlər haqqında qanun layihəsinə baxılmasının dayandırılmasını tələb edib. Bu versiyanı Gürcüstan Xarici İşlər Nazirliyi səsləndirib.

### Qərbdən gələn səslər

Bir gün əvvəl ABŞ Gürcüstan hökumətinin yüksək rütbəli nümayəndələrini ölkəyə səfərə dəvət etdiyini bildirsə də, onlar bundan imtina ediblər. Gürcüstan Xarici İşlər Nazirliyinin press-relizində deyilir: "Qarşılıqlı hörmət və qarşılıqlı etimada əsaslanmalı olan tərəfdaşlıq ruhuna uyğun gəlmir".

"Gürcü arzusu"nun xarici agentlər haqqında qanun layihəsinə dəstək aksiyası respublikada siyasi böhranın inkişafı üçün dönüş nöqtəsi olub. Əgər aprelin 29-dək etirazçılara daha çox bibər qazı vurulurdusa, indi bütün mümkün vasitələrdən, o cümlədən su şırnaqlarından, rezin güllələrdən istifadə olunur. Müxalifət barrikadalar qurmaqla cavab verir, lakin bu barrikadalar yalnız axşamdan səhərə qədər davam edir. Eyni zamanda, ölkə hökuməti rəqiblərinə humanist davrandığını, lakin onlarla mübarizəni davam etdirəcəyini iddia edir.

Təhlükəsizlik qüvvələri ilə hakimiyyətin əleyhdarları arasında baş verən qarşıdurmada qurbanların sayı onlarladır və artmaqda davam edir. Təkcə mayın 1-dən 2-dək ən azı 15 nəfər xəstəxanaya yerləşdirilib. Cümə axşamı gecəsi iğtişaşlar o həddə çatıb ki, səhər saatlarında parlamentin işini bərpa etməmək qərara alınıb.

Avropa İttifaqı və ABŞ nümayəndələri respublika hökumətinə təzyiqlərini davam etdirirlər. Belə ki, Avropa Komissiyasının sədri Ursula fon der Leyen Tbilisi küçələrində baş verən zorakılığı pisləyib və bildirib ki, gürcülər demokratiyaya güclü bağlılıq nümayiş etdirirlər. "Biz gözləyirik ki, Gürcüstan hökuməti Aİ-yə namizəd ölkə kimi öz üzərinə götürdüyü tədbirləri həyata keçirmək üçün təcili addım atsın. Gürcüstan yol ayrıcındadır. O, Avropaya doğru yolda qalmalıdır", von der Leyen deyib.

Almaniyanın xarici işlər naziri Annalena Baerbok bildirib ki, Tbilisi enerjili və tənqidi düşünən vətəndaş cəmiyyəti sayəsində Aİ-yə namizəd statusu alıb, lakin respublika hakimiyyəti onun Avropa gələcəyinə gedən yolunu bağlaya bilər. "Mənim həmrəyliyim Gürcüstan xalqı və onların Avropa arzusu uğrunda apardığı mübarizə ilədir", bunu isə Latviya prezidenti Edqars Rinkeviç deyib.

ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller öz növbəsində, xarici agentlər haqqında qanun layihəsinin qəbulu cəhdlərini pisləyib, onun sözlərinə görə, "Gürcü hakimiyyəti Kremldən ilhamlanıb". Miller hesab edir ki, bu sənəd Tbilisinin Avro-Atlantik inteqrasiyasını təhdid edir. "Hakim partiyanın üzvləri açıq şəkildə bildiriblər ki, qanunun məqsədi tənqidi səsləri susdurmaqdır. Bu isə Gürcüstanın güclü vətəndaş cəmiyyətini məhv etməkdir... Biz gürcü xalqını və onun səsini eşitmək hüququnu dəstəkləyirik", - ABŞ diplomatı bildirib.

Bununla belə, Gürcüstan hakimiyyəti bəhanə gətirməyə belə hazırlaşmır. Əksinə, Gürcüstan Daxili İşlər Nazirliyinin rəhbəri Aleksandr Daraxvelidze tabeliyində olanların rezin güllələrdən istifadə edə biləcəyini açıqlayıb, lakin bunu etməyib. Etirazçılar isə mənşəyi məlum olmayan qazlardan istifadə ediblər. "Bu alətlərin onların əlinə necə düşdüyünü biz mütləq öyrənəcəyik" deyə Daraxvelidze söz verib.

Paralel olaraq "Gürcü Arzusu"nun deputatı Rati İonatamişvili bildirib ki, müxalifətin əsl məqsədi öz fikirlərini sülh yolu ilə ifadə etmək deyil, mümkün qədər çox insanın əziyyət çəkməsini təmin etməkdir. "Bu insanlar Gürcüstanda sülh və sabitliyə düşməndirlər", - deyə siyasətçi bildirib.

Ekspertlər isə hökumətin qanun layihəsini qəbul edə biləcəyinə şübhə etmirlər, lakin etirazlar bununla bitməyəcək. "Münaqişə tərəfləri kompromis axtarmaq niyyətində deyillər. Onlar ümid edirlər ki, bu döyüşdən sonra siyasi meydanda onlardan yalnız biri qalacaq. Məşhur şüarda deyildiyi kimi, "bizimlə olmayanlar bizə qarşıdırlar". Eyni zamanda, bütövlükdə cəmiyyət də qütbləşir. Əsasən gənclər Avropa İttifaqına inteqrasiyanın tərəfdarıdır, yaşlı nəslin nümayəndələri isə hətta mühafizəkar deyil, retrograd fikirlərə malikdirlər. Biz eyni dildə danışırıq, amma sanki fərqli planetlərdəyik", - gürcü politoloq Nika Çitadze izah edir.

Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun Mərkəzi Asiya, Qafqaz və Ural-Volqa Bölgələrinin Tədqiqi Mərkəzinin əməkdaşı Xatiya Xutuaşvili hadisələrin inkişafının bu cür qiymətləndirilməsi ilə razılaşır. Onun müşahidələrinə görə, indiki etirazlar müxalifətin analoji qanun layihəsinin ləğvinə nail ola bildiyi ötənilki səviyyəyə artıq çatıb, lakin bu dəfə hakimiyyət geri çəkilməyəcək. Xutuaşvili hesab edir ki, "Gürcü arzusu" getdikcə populyarlığını itirir, lakin hələlik küçə etirazlarından qorxmamaq kifayətdir: "Hakim partiyanın əsas üstünlüyü ondan ibarətdir ki, onun vahid qərar qəbuletmə mərkəzi və lideri - Bidzina İvanişvili var. Müxalifətdə belə bir şey yoxdur. Hər gün etirazlara aydın fəaliyyət planı olmayan yeni adamlar rəhbərlik edir".

### Bidzina İvanişvili ittiham edir

Gürcüstanın hakim "Gürcü arzusu – Demokratik Gürcüstan" partiyasının təsisçisi və onun fəxri sədri – respublikanın keçmiş baş naziri, iş adamı Bidzina İvanişvili "qlobal müharibə tərəfini" Gürcüstan və Ukraynanı qəsdən Rusiyaya qarşı qoymaqda ittiham edib. Ötən gün baş tutan aksiyanı hakim partiya xarici agentlər haqqında qanunun qəbuluna etirazlara cavab olaraq təşkil edib. İvanişvili səhnəyə çıxaraq, onun fikrincə, ABŞ və Avropa İttifaqının hərəkətlərinə təsir göstərən, onları Gürcüstan və Ukraynadan Rusiyaya qarşı "top yemi" kimi istifadə etməyə təşviq edən "qlobal müharibə partiyası"ndan danışıb.

Siyasətçi xatırladıb ki, 2008-ci ildə Buxarestdə keçirilən NATO sammitində Gürcüstan və Ukraynaya alyansa qoşulmaq vədləri verilib, lakin növbəti on il yarım üçün "layihədə dayanmaq" qalıb. "Bütün bu cür qərarlar NATO və Avropa İttifaqına həlledici təsirə malik olan və həm Gürcüstan, həm də Ukraynanın top yeminə dəyər olduğu qlobal müharibə tərəfi tərəfindən verilir. Onlar əvvəlcə 2008-ci ildə Gürcüstanı Rusiyaya qarşı qoydular, 2014 və 2022-ci illərdə isə Ukraynanı daha da çətin vəziyyətə saldılar", - İvanişvili mitinq iştirakçılarına müraciət edib. İvanişvilinin mitinqdə verdiyi bəyanatlar Gürcüstan müxalifətinin nümayəndələri tərəfindən tənqid edilib. Xüsusilə, müxalifət partiyası olan "Lelo"nun lideri və Gürcüstanın ən böyük TBC Bankının təsisçisi Mamuka Xazaradze bildirib ki, İvanişvili "qlobal müharibə tərəfi" dedikdə Avropa İttifaqını nəzərdə tutur. Xazaradzenin partiya həmkarı Badri Caparidzenin sözlərinə görə, "İvanişvili Gürcüstanda antimilli, anti-Avropa və antiamerikan siyasətin yaradıcısı olduğunu açıq şəkildə təsdiqləyib". Axalı partiyasının lideri Nika Qvaramiya İvanişvilinin müraciətini "son dərəcə təcrid və aqressiv repressiv", "nifrət və düşmənçilik səpmək" kimi qiymətləndirib. "Bu şəxs Gürcüstan üçün çox təhlükəlidir və bu il ona [seçkilərdə] son qoymaq lazımdır", - Qvaramiya deyib.

Beləliklə, bir qanun Gürcüstan cəmiyyətini ikiyə bölüb, özlərini müxalifət kimi təqdim edən QHT sektorunun təmsilçiləri hakimiyyəti ittiham edir, qarşı tərəf isə mənbəyi bəlli olmayan pul vəsaiti ilə ölkəni tamamilə ələ keçirməyə can atan xarici qüvvələri neytrallaşdırmaq qərarında qəti olduğunu elan edib. Hətta Avropa İttifaqına namizəd olmamaq bahasına başa gəlsə də "Gürcü arzusu" geri çəkilməyəcəyində israrlı görünür.

**V.VƏLİYEV**

RAKURS

*Çaylarda və göllərdə yaşayan canlılardan tutmuş bataqlıq ərazilərdə, dənizlərdə yaşayan bir çox canlıların həyatda qala bilməsi üçün su vacibdir. İnsanlar üçün su ehtiyatları təkcə sağlamlıq, qida, gəlir və enerji mənbəyi deyil, həm də vacib nəqliyyat marşrutları və istirahət məkanları üçün də əhəmiyyətlidir.*



# COP gündəliyi: okeanlar təhlükədədir

Yüz illərdir insanlar Avropanın su ehtiyatlarını qida məhsulları yetişdirmək, enerji istehsal etmək üçün istifadə edirlər. Avropanın iqtisadi və sosial inkişafının mərkəzində olan bu fəaliyyətlər suyun keyfiyyətinə, xüsusən də çaylara, təbii balıqların məskunlaşdığı ərazilərə və digər su canlılarına da ziyan vurub. Təəssüf ki, su bir çox hallarda atdığımız çirkab havaya, torpağa və suya qarışır, tullantılarımızın və kimyəvi maddələrimizin son dayanacağı elə su hövzələri olur.





Bir sözlə, suyun faydalarından istifadə etməkdə son dərəcə bacarıqlı olsaq da, bu, təbii mühitə və iqtisadiyyata baha başa gəldi. İndi bir çox su ekosistemləri və növləri təhlükə altındadır, çox növdə balıq populyasiyası azalıb, sahil eroziyası artmaqdadır. Nəticədə, bütün bu dəyişikliklər su ehtiyatlarını və onun sakinlərini ciddi formada təhlükə altına salır.



Çirklənmə, bütün dünyada olduğu kimi, Avropada şirin su ehtiyatlarına ziyan vurmağa davam edir. Bunun da nəticəsində su ekosistemləri, biomüxtəliflik itirilir, insanların sudan əldə etdiyi faydaları təhlükə altına alır. Yerüstü su ehtiyatları ilə bağlı əsas problemlərə kənd təsərrüfatının qida maddələrinin həddindən artıq çirklənməsi, havadan kimyəvi çirklənmə halları da daxildir.

İntensiv kənd təsərrüfatı, məhsuldarlığını artırmaq üçün kimyəvi gübrələrə ehtiyac duyur. Azot, təbiətdə bitkilərin inkişafı üçün zəruri olan bol kimyəvi elementdir. Lakin əkin üçün istifadə edilən azotun bir hissəsi bitkilərə getmir, torpaqda yığılıb qalır. Bunun bir sıra səbəbləri ola bilər, məsələn tətbiq olunan gübrə miqdarının bitkinin udduğundan çox olması və ya bitkinin böyümə dövründə tətbiq olunmaması. Artıq azot torpağa qarışaraq dolayı yolla su mənbələrinə nüfuz edə bilir.

Torpaqda yetişdirilən bitkilərə təsiri kimi, suda çox miqdarda azot yığılarsa müəyyən su bitkilərinin və yosunların həddindən çox böyüməsini artırır və bu, evtrofikasiya kimi tanınan bir prosesdir. Bu əlavə böyümə isə sudakı oksigeni istehlak edir və o su mənbəyində yaşayan digər canlılara zərər verir. Ancaq suya qarışan azot təkcə kənd təsərrüfatından deyil, sənaye obyektləri və ya dizel mühərrikli nəqliyyat vasitələri də atmosferə əhəmiyyətli miqdarda azotlu birləşmələr buraxa bilər və sonra bu birləşmələr torpaq və su səthlərində toplanır. Ağır metallar heyvanlarda və insanlarda öyrənmə, davranış və reproduktiv problemlər yaradır. Son illərdə antibiotiklər və antidepresanlar kimi əczaçılıq məhsullarının suda yaratdığı çirklənmə artıb, bunun su canlılarının hormonlarına və davranışlarına təsir etdiyi müəyyən edilib.

Avropa İttifaqına üzv dövlətlərin çirklənmə mənbələri ilə mübarizə, təbii yaşayış yerlərinin bərpası və bəndlərdə balıqlar üçün keçid yollarının yaradılması səylərinə baxmayaraq, son on ildə su ehtiyatlarının vəziyyəti yaxşılaşmayıb. Avropa çaylarında tikilən xeyli sayda bənd və su anbarlarını nəzərə alsaq, görülən tədbirlərin miqyası əhəmiyyətli irəliləyiş əldə etmək üçün yetərli olmaya bilər. O da mümkündür ki, biz bu tədbirlərin bəzilərinin yalnız uzunmüddətli perspektivdə nəzərəçarpacaq nəticələrini görə bilək, hazırda bir nəticə görməməyimiz də bununla bağlı ola bilər.

Bataqlıqlar Avropanın təhlükə altında olan ən vacib ekosistemlərindən biridir. Bataqlıqlar, su və torpaq kimi yaşayış yerlərinin görüşmə nöqtəsi kimi mühüm rol oynayır. Yaşamaq üçün bataqlığa ehtiyacı olan və təhlükə altında olan canlılar var. Avropa 1900-1980-ci illərin ortaları arasında torpaq drenajı səbəbindən bataqlıq ərazilərinin üçdə ikisini itirdi. Bu gün bataqlıqlar Aİ ərazisinin 2%-ni təşkil edir. Aİ-də bir çox su-bataqlıq yaşayış mühiti növləri qorunsa da, mühafizə statusunun qiymətləndirilməsi göstərir ki, bu yaşayış mühiti növlərinin 85%-i mənfi vəziyyətdə, 34%-i orta vəziyyətdə və 51%-i isə çox pis vəziyyətdədir.

Avropanın dənizləri müxtəlif dəniz orqanizmləri və ekosistemlərinə ev sahibliyi edir. Bunlar həm də vacib qida, xammal və enerji mənbələridir. Avropa dənizlərinin vəziyyəti haqqında hesabatlar göstərir ki, dəniz biomüxtəlifliyi hər gün daha da pisləşir. Üstəlik, dəniz biomüxtəlifliyi qeyri-adekvat olaraq qiymətləndirilir, növlər üzrə təyinatlar apararkən hər beş növdən dördü "naməlum canlı" kimi təsnif edilir. Dəniz Strategiyasının Çərçivə Direktivinə əsasən yaşayış mühitinin qiymətləndirilməsi mənfi vəziyyətin əsas səbəbləri arasındadır. Yəni vəziyyət həm də doğru qiymətləndirilmədiyi üçün canlılar təhlükə altındadır. Bütün bu səbəblərin nəticəsində də Baltik dənizi, Atlantik Okeanı şimal-şərqi, Aralıq dənizi və Qara dəniz əsaslı dəyişikliklərə məruz qaldı. Biomüxtəlifliyin itirilməsi bütün dəniz ekosisteminə və onun təmin etdiyi faydalara mənfi təsir göstərdi.

Avropa dənizlərinə köç edən ekzotik canlılar dəniz biomüxtəlifliyi üçün daha bir böyük təhlükə yaradır. Ekzotik növlərin populyasiyaları sürətlə artaraq dənizləri istila edir, bu da təbii ki yerli növlərin zərərinədir. İstilaçı ekzotik canlılar hətta bəzi balıq populyasiyalarının qarşısını alır. Bu böyük çətinliklərə baxmayaraq, dəniz ekosistemləri indiyədək dözümlülüyünü qoruyur. Nə qədər qoruya biləcək, bu sual altındadır.

Bütün təhlükələrin fərqində olan Avropa İttifaqının su siyasətinin əsas məqsədi, insanların və ətraf mühitin ehtiyaclarını ödəmək üçün kifayət edəcək miqdarda keyfiyyətli suyun mövcudluğunu təmin etmək olub. Əksi mümkün deyil, çünki su təhlükə altında qalmağa davam edəcəksə insanların və digər canlıların da həyatı ilə bağlı ciddi təhlükələr meydana gələcək. Bunu isə, heç kim arzulamır.

**Lalə Mehralı**



**Elçin Bayramlı**

# Psixotron terror: Uşaqlarımız tam müdafiəsizdir?

Son dövrlərdə intiharların sayının xeyli artmasının səbəblərini analiz edərkən, ortaya maraqlı məqamlar çıxır. Bunu bəziləri sosial problemlərlə, bəziləri isə psixoloji problemlərlə bağlayırlar. İntiharların bu qədər artmasının hansı sosial səbəbləri var və bu artımda "ədalətsiz cəmiyyət"in yaratdığı sosial bərabərsizliyin payı varmı, yoxsa psixoloji gərginlik buna gətirib çıxarır? Bunların hansının payı nə qədərdir? Bu suala cavab vermək üçün gəlin vəziyyətə baxaq.

Xüsusən də, uşaq, yeniyetmə və gənclər arasında intihar hallarının artması ürəkağrıdandır. Bu da onu göstərir ki, intihar cəmiyyətimizin çox ciddi sosial probleminə çevrilir. Və bu intiharların kökündə əsasən maddi problemlər dayanmır. Faktlar göstərir ki, az yaşda intihar edənlərin çoxu buna mənəvi-psixoloji vəziyyətlərindən dolayı əl atırlar. Baş tutmamış sevgi, narkotik maddələrdən istifadə, mənəvi deqradasiya, qlobal psixotron terrora məruz qalmaq və ruhi boşluğa düşmək (qayğı, diqqət, sevgi görməmək), təhqir olunmaq, zorlanmaq əsas səbəblərdəndir. Burada sosial, daha doğrusu maddi problemlərdən doğan səbəblərin payı son dərəcə azdır.

Psxotron təzyiqdə, mənəvi dəyərləri məhv etməkdə və qeyri-sağlam həyat tərzini təbliğ etməkdə medianın və internet resursların da rolu böyükdür. Bəzi özəl televiziyalar və orada çıxış edən bir çox şəxslər var gücləri ilə insanların- xüsusən yeniyetmə və gənclərin əxlaqını pozmağa, ailə institunu dağıtmağa, uşaq tərbiyəsini lazımsız bir şeyə çevirməyə açıq şəkildə səsləyir. Seriallar, şou verilişlər mənəvi dəyərləri məhv edir.

Valideynlərin çoxu uşaqlarının tərbiyəsini buraxıb televiziyanın, internetin öhdəsinə. Hər uşağın əlində bir yekə smartfon alıb verib canlarını qurtarıblar. Onların yerinə uşaqlarını virtual məkanda kimlər tərbiyə, edir, kimlər yönəldir heç veclərinə də deyil.

Uşaqlar cəmi 30 il əvvəlki ənənəvi məkanlarından- yaradıcılıq mərkəzlərindən, istirahət düşərgələrindən, idman salonlarından... ayrılaraq küçələrə tərk edilib. Ən yaxşı halda dəhşətli oyunlar oynadıqları, pornoya, zorlamaya, qanlı döyüş səhnələrinə baxdıqları "virtual dünyaya" buraxılıb.

Konkret olaraq, intiharların kəskin artması cəmiyyətdə mənəvi-pxisoloji əxlaqı dəyərlərin dəyişməsinin əyani təzühürüdür. Burada sosial problemlərin təsirini əsas götürənlərlə razılaşmıram, bu faktor bəlkə bir neçə faiz rol oynaya bilər. Müqayisə üçün baxın, intiharların səviyyəsi məhz inkişaf etmiş, əhalisinin maddi təminatı yaxşı olan ölkələrdə daha yüksəkdir. Və ya digər müqayisəyə baxaq- tarixin sosial-maddi cəhətdən ən ağır dövrlərində intiharlar az olub, amma indi dəfələrlə çoxdur. Misal üçün, bəşər tarixinin 2-ci dünya müharibəsi illərindən ağır dövrü olmayb, onda intiharlar çox cüzi idi. Son 30 ilədək isə, uşaq və yeniyetmə intiharına isə demək olar ki rast gəlinmirdi.

Uşaqlarına sahib çıxmayan onların tərbiyəsi ilə məşğul olmayan, onlara vaxt diqqət və ayırmayan, qayğı göstərməyən fasiləsiz olaraq nəzarət etməyən valideynlərin övladları böyük risk altındadır. Uşaqlara tərbiyə verməyi arxa plana atıb, onları tam nəzarətsiz buraxıblar. Siz heç əlində kitab qəzet, kitab oxuyan və ya bir-biri ilə şahmat oynayan uşaq, yeniyetmə və gəncə rast gəlmisinizmi? Xeyr təbii ki. Amma əlində smartfon pozğun videolara baxan, qorxunc oyunlar oynayan, vaxtını bir- birinə şit və tərbiyəsiz videolar göndərməklə keçirənləri kütləvi görürük.

Azyaşlı uşaqların əlinə bahalı smartfonlar alıb verib yaxaların çəkiblər kənara. İnternetdə ağla gələn və gəlməyən hər cür təhlükəli materiallar var- hansı ki, psixikaya çox ağır zərbə vurur, dəyərlər sistemini dəyişdirir, əxlaqsızlığı, narsizmi, eqoizmi, həyatda maddi həzz və əyləncədən üstün dəyər olmadığını təbliğ edir.

Elm sübut edib ki, televiziya və videomateriallar insan psixikasına hər şeydən güclü təsir edir. Bu vasitə ilə onu istədiyi istiqamətə yönəldə bilirlər. Subliminal mesajlarla, 25-ci kadrlarla dolu olan videomateriallar, xüsusi frekansda və beyin xarab edən tonlarda mahnılar şüuraltına işləyir və yalnız pis məqsədlərə xidmət edir.

Mən hələ görməmişəm ki, özəl tv-lərdə alimlər danışa, elm, təhsil məsələləri müzakirə edilə, intellektual yarışlar təşkil edilə, müasir texnologiyalar öyrədilə, sağlam həyat tərzini təbliğ edilə. Yalnız dövlət kanallarında və ictimai televiziyada bu var.

Yəni, ətrafdan çox güclü psixotron təzyiq, daha doğrusu terror var. Uşaqlar qorxunc dünyanın caynağına buraxmaq olmaz. Onlar bu psixotron terrorun öhdəsindən gələ bilməz. Ona görə də istisnasız olaraq bütün bu kimi hallarda valideyn günahkardır.

Hələ də çox gec deyil, uşaqlarınıza sahib çıxın. Onların fiziki və mənəvi sağlamlığını təmin etmək sizin vəzifəniz, borcunuzdur. Bunu edə bilmirsinizsə, verin uşaqları internatlara. Bu, onlar üçün daha yaxşı olar. Bu gün faktiki olaraq bu dilemma qarşısındasınız- ikisindən birini seçin.



# Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının milli sərvətidir

***Bugünkü güclü və qüdrətli Azərbaycan tarixin müxtəlif dövrlərində ağır sınaqlardan keçməli olub. Bu çətin dövrlərdə insanlarımız öz azadlığı, həyatı uğrunda böyük mübarizələr aparıb, qurbanlar verib, sağlamlığından olub. Real və inkarolunmaz fakt ondan ibarətdir ki, Azərbaycan xalqı ağır sınaqlarla üzüzə qalsa da, heç zaman haqqının qorunması, hüquqlarının müdafiəsi uğrunda mübarizəsindən imtina etməyib. Əksinə ağrılar, acılar xalqı bir-birinə daha sıx birləşdirmişdir.***

Qətiyyət və cəsarət, nəhayət, özünün qalibiyyəti ilə nəticələndi 30 avqust 1991-ci ildə Azərbaycan parlamentinin - Ali Sovetin növbədənkənar sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul etdi. Bəyannamədə Azərbaycan Respublikasının 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu vurğulanırdı. Təəssüflər olsun ki, bəzi qüvvələr çətinliklə qurulan müstəqilliyi hakimiyyət uğrunda savaşa qurban verməyə çalışdılar. Ötən əsrin 90-cı illərin əvvəllərində Azərbaycanda bütün sahələrdə hərc-mərclik, özbaşınalıq, xaos hökm sürürdü. Belə bir ağır dönəmdə düzgün fəaliyyət yol tutulmadığından 1990-cı il yanvarın 20-də Moskvadakı Qorbaçov və onun yanında olan ermənipərəst qüvvələr Bakı şəhərində qanlı qırğın törətdilər. Bununla yanaşı, Azərbaycanı informasiya blokadasına almaqla baş verənlərin dünya ictimaiyyətinə çatdırılmasına əngəllər yaratdılar. Yalnız Ulu Öndərimiz Heydər Əliyevin fəal müdaxiləsi ilə Azərbaycanın üzləşdiyi 20 yanvar faciəsi ilə bağlı həqiqətlərin dünya xalqlarına və beynəlxalq təşkilatlara çatdırmaq mümkün oldu. Dahi Öndərimiz Heydər Əliyev Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək 20 yanvar faciəsini törədənlərin ifasına nail oldu, beynəlxalq təşkilatları faciə ilə bağlı məlumatlandırdı. Dahi Öndərimiz faciənin ağır günlərində ailəsi ilə Azərbaycan xalqının yanında olduğunu nümayiş etdirdi. Ulu Öndərimiz Heydər Əliyev Azərbaycan xalqına verdiyi başsağlığında soydaşlarımızı ağır gündə "ağıllı, kamallı olmağa, həmrəyliyə və birliyə çağırdı". Xalq Dahi Öndər Heydər Əliyev kimi bacarıqlı, böyük nüfuz sahibi olan bir şəxsiyyətin onunla olduğunu, müdafiə etdiyini gördü, ürəkləndi. Nəticədə sonrakı mərhələdə mübarizə daha geniş xarakter aldı və müstəqil Azərbaycan dövləti quruldu. Lakin qurulan dövlətin sütunları zəif və kövrək olduğundan dağılmaq təhlükəsi ilə üzləşmişdir.

### Xalqı bəlalardan xilas edən lider

O zaman hakimiyyətdə olan AXC - Müsavat cütlüyü mövcud vəziyyəti aradan qaldırmaqdansa haqq uğurunda səsini qaldıran xalqın səsini batırmağa çalışırdı. Hətta küçələrə çıxan insanlara atəş açmaqdan, həbs edib, türmələrə atmaqdan çəkinmirdilər. Vəziyyətin idarəolunmaz dərəcədə kritik olmasından istifadə edən Ermənistan ardıcıl olaraq Azərbaycanın torpaqlarını işğal edirdi. Artıq vəziyyət o qədər çətin və ağır həddə çatmışdır ki, ölkəmiz müstəqil dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Azərbaycanı belə çətin vəziyyətdən xilas etmək üçün yeni bir siyasi təşkilatın yaradılması mütləq tarixi zərurətə çevrilmişdi. Hər zaman olduğu kimi bu dəfə də Azərbaycan xalqının ümid yeri Ümummilli Liderimiz, Xalqımızın xilaskarı Heydər Əliyev idi. Məhz bu məqsədlə 1992-ci il oktyabr ayının 16-da 91 nəfər Azərbaycan ziyalısı yeni bir siyasi partiyanın yaradılması təşəbbüsü ilə Heydər Əliyev dühasına xüsusi müraciət ünvanladı. Həmin ilin oktyabrın 24-də Ulu Öndərimiz Heydər Əliyev ziyalıların müraciətinə müsbət cavab verdi. Beləliklə 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi və Dahi Öndərimiz partiyanın Sədri seçildi. Tarixi çıxışlarının birində Ümummilli Lider Heydər Əliyev müstəqilliyimizin ilk illərində ölkəmizdə cəriyan edən çətin, ağır dövrü barədə demişdir: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı". Xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə gələn Ulu Öndərimiz ölkəni və xalqı üzləşdiyi bəlalardan xilas edə bildi. Bu baxımdan 1993-cü ilin 15 İyun Milli Qurtuluş Günü - Azərbaycanın inkişafında, müstəqilliyində müstəsna rol oynayan tarixi gündür. Xilaskarlıq missiyasını öz üzərinə götürən Dahi Öndər Heydər Əliyev daxili və xarici düşmənlərimizin bütün planlarını iflasa uğradaraq, 1993-cü il iyunun 9-da Bakıya gəldi və 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi və həmin gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Ümummilli Lider Heydər Əliyev ölkə daxili problemlərin həlli üçün cəmiyyət də vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz".

Ulu Öndər Heydər Əliyevin humanist siyasəti sayəsində 1995-ci ilin may ayında əfv və amnistiya təsisatları bərpa edildi. Buna paralel olaraq insan hüquqlarına riayət olunması üzərində parlament nəzarətini təşkil etmək üçün insan hüquqları müvəkkili (Ombudsman) institutu yaradıldı. Bütün bunlar isə ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmini və gücləndirilməsi istiqamətində əhəmiyyətli faktorladan biri idi. Ulu öndər Heydər Əliyev 22 fevral 1998-ci il tarixli xüsusi Fərman imzalayaraq Konstitusiyada öz əksini tapmış insan hüquqlarının həyata keçirilməsinin asanlaşdırılmasını hüquqi əsasda təsbit etmiş oldu. Bununla yanaşı, 1993-cü ildən Ulu öndərin şəxsi təşəbbüsü ilə icrasına moratorium qoyulmuş ölüm hökmü 10 fevral 1998-ci il tarixli Qanunla tamamilə ləğv olundu. Beləliklə, insan və vətəndaş hüquq və azadlıqlarının əhatə dairəsi genişləndirildi. Bu isə demokratikləşmə prosesini olduqca sürətləndirdi.

### "Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti, Azərbaycan xalqının milli sərvəti, xəzinəsidir"

2003-cü ildən Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirən, onun ən dəyərli, siyasi varisi olan İlham Əliyevin timsalında bir daha onun dahiliyinin şahidi olduq. Azərbaycan xalqı həmişə o irsdən faydalanacaq. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü ilin "Heydər Əliyevin -100" nin keçirilməsi barədə qərar bir daha dahi şəxsiyyətin fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin dərindən araşdırılmasına, zəngin irsinin əhatəli təbliğinə geniş imkanlar yaradacaq. Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti, Azərbaycan xalqının milli sərvəti, xəzinəsidir, bundan sonra da neçə-neçə nəsillər bu məktəbdən bəhrələnərək Azərbaycanın davamlı inkişafına öz töhfəsini verəcəkdir. Onun fəaliyyətinin hər bir mərhələsi - istər Azərbaycanda hakimiyyətinin birinci dövrü (1969-1982), istərsə də müstəqilliyimizin bərpasından sonrakı dövr ayrı-ayrılıqda tədqiqat mövzusudur. Fəxarət hissi ilə qeyd etmək lazımdır ki, ulu öndər Heydər Əliyev hər bir azərbaycanlının qəlbində özünə bir abidə ucaldıb və bu abidənin adı müasir müstəqil Azərbaycan dövlətidir.Bu gün Prezident İlham Əliyevin gördüyü işlərin zirvəsində ərazi bütövlüyümüzü bərpa etməklə Ata vəsiyyətini yerinə yetirməsi dayanır. Ümummilli Lider qeyd olunan müraciətində axıra çatdıra bilmədiyi işlərin cənab İlham Əliyevin xalqın dəstəyi ilə həyata keçirəcəyinə böyük inamını ifadə etmişdir. Ulu Öndər "Ona Özüm qədər inanıram" söyləməklə gələcək inkişafın aydın mənzərəsini təqdim etmişdir. Prezident İlham Əliyev bu müddət ərzində torpaqlarımızın işğaldan azad edilməsinə hazırlıq işləri çərçivəsində bütün zəruri addımların atılmasına nail oldu, Azərbaycanın iqtisadi imkanları daha da genişləndi, beynəlxalq münasibətlər sistemində rolu artdı, münaqişənin həlli üçün möhkəm hüquqi baza formalaşdı və ordu quruculuğu prioritet sahə kimi öndə oldu.

Dövlətimizin qətiyyəti, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun gücü, qüdrəti, xalqımızın birliyi sayəsində Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir oldu. 44 günlük Vətən müharibəsində şanlı Zəfərimiz Azərbaycanın qarşısında yeni imkanlar yaratdı. Qürur hissi ilə deyə bilərik ki, ümummilli lider Heydər Əliyev müstəqilliyimizin, Prezident İlham Əliyev isə torpaqlarımızın xilaskarı kimi adlarını tarixə qızıl hərflərlə yazdılar. Prezidenti İlham Əliyevin xalq, dövlət maraqlarına əsaslanan xeyirli, gərəkli fəaliyyətinin əsas məğzini 44 günlük Vətən müharibəsi ilə 30 il işğal altında olmuş torpaqlarımızın düşmən əsarətindən azad edilməsi və bununla da Ali Baş Komandan İlham Əliyevin ata vəsiyyətini yerinə yetirməsidir.

### "Azərbaycan daim var olacaq və həmişə Azərbaycan xalqının yaddaşında Heydər Əliyev yaşayacaq"

44 günlük Vətən müharibəsində qazanılmış qələbə Azərbaycan tarixinə qızıl hərflərlə yazılan tarixi səhifə oldu. 2020-ci ildə Müzəffər Ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyünü bərpa etdi, müqəddəs Qarabağımız işğaldan azad olundu. 2023-cü ilin aprelin 23 -də isə Xankəndi-Laçın yolunun başlanğıcında, Həkəri çayının üzərində sərhəd- keçid məntəqəsi quruldu. Bununla da suverenliyimiz təmin olundu. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Azərbaycan xalqına çatdırarkən demişdir: "Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!". Bu fikirləri ilə Prezident İlham Əliyev bir daha Ulu Öndərimizin siyasətini inamla və qətiyyətlə davam etdirdiyini və Dahi Öndərin "torpaqlarımızın işğaldan azad edilməsi" vəsiyyətini böyük fəxarət və qürurla yerinə yetirdiyini göstərir. Bu günki, güclü və qüdrətli Azərbaycan Ulu Öndər Heydər Əliyevin şah əsəridr. Bu baxımdan demək olar ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanın özüdür. Azərbaycan deyəndə Heydər Əliyev, Heydər Əliyev deyəndə Azərbaycan yada düşür. Ulu Öndər Heydər Əliyev çıxışlarının birin də demişdir: "Azərbaycan durduqca mən var olacam". Bəli Ulu Öndərimiz Heydər Əliyevin qurucusu olduğu Azərbaycan dövləti dünya durduqca yaşayacaq və daim inkişaf edəcək. Bu isə bir daha onu deməyə əsas verir ki, deyək: "Azərbaycan daim var olacaq və həmişə Azərbaycan xalqının yaddaşında Heydər Əliyev yaşayacaq".

***İLHAM ƏLİYEV***

təhlil

## CPC MMC-nin 2023-cü ilin nəticələrinə dair audit olunmuş maliyyə hesabatları

"CPC" MMC
MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

| Azərbaycan manatı ilə | Qeyd | 31 Dekabr 2023 | 31 Dekabr 2022 |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Bina, qurğu və avadanlıqlar | 4 | 13,700,191 | 14,528,998 |
| Qeyri-maddi aktivlər | 5 | 69,203 | 59,114 |
| Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşması | 6 | 2,500 | 12,145 |
| Sair uzunmüddətli aktivlər | 7 | 20,692,800 | 19,492,684 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **34,464,694** | **34,092,941** |
| **Cari aktivlər** | | | |
| Ehtiyatlar | 8 | 8,073,119 | 10,590,473 |
| Debitor borcları | 9 | 1,647,946 | 1,847,437 |
| Pul və pul vəsaitlərinin ekvivalentləri | 10 | 2,557,049 | 1,721,815 |
| Digər aktivlər | 11 | 306,569 | 1,167,748 |
| **Cəmi qısamüddətli aktivlər** | | **12,584,683** | **15,327,472** |
| **Cəmi aktivlər** | | **47,049,376** | **49,420,413** |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 12 | 65,474,020 | 65,474,020 |
| Bölüşdürülməmiş mənfəət | 12 | (41,384,801) | (39,263,805) |
| **Cəmi kapital** | | **24,089,219** | **26,210,215** |
| **Öhdəliklər** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Digər uzunmüddətli öhdəliklər | 13 | 7,262,972 | 7,271,333 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **7,262,972** | **7,271,333** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Qısamüddətli kreditor borcları | 14 | 15,506,972 | 15,844,133 |
| Vergi və sair ödənişlər üzrə öhdəliklər | 15 | 173,126 | 90,700 |
| Sair qısamüddətli öhdəliklər | 16 | 17,088 | 4,031 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **15,697,185** | **15,938,864** |
| **Cəmi öhdəliklər** | | **22,960,157** | **23,210,198** |
| **Cəmi öhdəliklər və kapital** | | **47,049,376** | **49,420,413** |

29 aprel 2024-cü ildə Rəhbərliyin adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Mehdiyev İbrahim
Direktor

Əzizova Aliyə
Baş Mühasib

5

"CPC" MMC
MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ MƏCMU GƏLİR HAQQINDA HESABAT

| Azərbaycan manatı ilə | Qeyd | 2023 | 2022 |
|---|---|---|---|
| **Mal satışından gəlir** | 17 | **12,339,388** | **15,419,393** |
| Satışların maya dəyəri | 18 | (9,886,921) | (10,918,913) |
| **Ümumi mənfəət** | | **2,452,467** | **4,500,480** |
| Sair gəlirlər | 17 | 4,436 | 137,884 |
| Ümumi inzibati xərclər | 19 | (4,577,899) | (6,426,977) |
| **Vergidən əvvəlki mənfəət** | | **(2,120,996)** | **(1,788,613)** |
| Mənfəət vergisi | | - | - |
| **Xalis mənfəət** | | **(2,120,996)** | **(1,788,613)** |

29 aprel 2024-cü ildə Rəhbərliyin adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Mehdiyev İbrahim
Direktor

Əzizova Aliyə
Baş Mühasib

"CPC" MMC
KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

| Azərbaycan manatı ilə | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | **65,474,020** | **(39,263,805)** | **26,210,215** |
| İl üzrə mənfəət | - | (2,120,996) | (2,120,996) |
| **31 dekabr 2023-cü il tarixinə qalıq** | **65,474,020** | **(41,384,801)** | **24,089,219** |

29 aprel 2024-cü ildə Rəhbərliyin adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Mehdiyev İbrahim
Direktor

Əzizova Aliyə
Baş Mühasib

"CPC" MMC
PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

| Azərbaycan manatı ilə | 2023 | 2022 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | |
| Xalis mənfəət | (2,120,996) | (1,788,613) |
| **Əməliyyat aktiv və passivlərində dəyişiklikdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | | |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklər** | | |
| Debitor borclarda xalis artım/azalma | 199,490 | (653,477) |
| Mal-material ehtiyatlarında xalis artım/azalma | 2,517,354 | (6,268,406) |
| Kreditor borclarda xalis artma/azalma | (337,161) | 14,672,969 |
| Digər qisamüddətli aktivlərdə artım/azalma | 861,179 | (1,167,748) |
| Digər qisamüddətli öhdəliklərdə artım/azalma | 95,482 | (138,207) |
| Bina Qurğu və Avadanlıqlar üzrə amortizasiya xərcləri | 2,020,704 | 2,323,743 |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **3,236,053** | **6,980,260** |
| **İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | |
| Bina Qurğu və Avadanlıqların alınması | (1,201,986) | (757,532) |
| Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması | 9,645 | (12,145) |
| Sair uzunmüddətli aktivlərdə (artma) və ya azalma | (1,200,116) | 368,570 |
| **İnvestisiya fəaliyyətlərinə yönəlmiş pul vəsaitləri** | **(2,392,457)** | **(401,107)** |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | |
| Digər uzunmüddətli öhdəliklərin azalması | (8,362) | (4,882,100) |
| Kapital ehtiyatlarının artması və ya (azalması) | - | (198,459) |
| **Maliyyələşdirmə fəaliyyətlərinə yönəlmiş pul vəsaitləri** | **(8,362)** | **(5,080,559)** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma/(azalma)** | **835,234** | **1,498,594** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | **1,721,815** | **223,220** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **2,557,049** | **1,721,815** |

29 aprel 2024-cü ildə Rəhbərliyin adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir:

Mehdiyev İbrahim
Direktor

Əzizova Aliyə
Baş Mühasib

# "Ailə tutumu uşağın məktəbdəki dərs performansına təsir edən ən önəmli faktdır"

***"Uşaqların dərs oxumağa meyilinin olmamasının bir çox səbəbi var". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Leyla İsmayılova deyib. O bildirib ki, fiziki narahatlıq, emosional sıxıntı, sosial təzyiqlər və ya tədris metodları ilə bağlı problemlər bu istəksizliyə səbəb ola bilər. Uşağın bu vəziyyətə düşməsinin səbəbini anlamaq problemin həlli yolunda ilk addım olacaq. Texnologiyanın istifadəsi günü-gündən artır. Bu da uşaqların dərsə həvəsini azaldır. Ev tapşırığı olub-olmamasından asılı olmayaraq həftəiçi televiziya və ya planşetdən istifadə məhdudlaşdırılmalıdır. Planşet, telefon və kompüter müəyyən həddə istifadə edilməli olan materiallardır.***





**PSİXOLOQ İZAH ETDİ**



Texnoloji cihazlardan düzgün istifadə uşaqların dərsə həvəsinə müsbət təsir göstərə bilər. Öyrənilən dərslərlə bağlı texnoloji materiallardan istifadə etməklə öyrədici oyunlar oynana, bacarıqların inkişafına dəstək verilə bilər.

İlkin olaraq, araştırmalar göstərir ki, ailə tutumu uşağın məktəbdəki dərs perfomansına təsir edən ən önəmli faktdır. Bununla birlikdə başqa araştırmalar məktəbdəki, dərs perfomansı aşağı olan uşaqları olmayanlardan ayıran səbəbin ailənin uşağın təhsilinə diqqətsizliyi olduğunu deyir.

Məktəbdən öncə öyrənmə doğulduğumuz evlərdə başlayır. Baxım verənlərimizi model alaraq, onların bizə qarşı olan münasibətləri bizi də həyata qarşı hazırlayır. Öz öhdəliklərini yerinə yetirə bilməyən bir ailədə böyüyən uşağın da öz öhdəliklərini yerinə yetirməməsi, dərslərinə istəksiz olması gözləniləndir. Eyni zamanda, bəzən ailə daxilində yüksək gözləntilər, həddindən artıq basqı uşaqlarda dərs zamanlarının stressli keçməsinə və məcburiyyət hiss etmələrinə yol açır. Ən əsası da, uşaqlara qarşı istifadə etdiyimiz dil çox önəmlidir. Oxu adam ol, çoban olacaqsan ve s. kimi uşağın özgüvənini zədələyəcək sözlərdən istifadə etməyimiz uşağın məktəbə olan motivasiyasını aşağı salır. Bəzənsə uşağın öz maraqları oldugunu unudaraq, sadəcə öz istəklərimizi onlara aşılayırıq. Uşaqları öz maraqlarına yönəltməmək onların dərs prosesini monoton və darıxdırıcı görməsinə səbəb ola bilər.

İkinci önəmli faktor isə təhsil sistemində olan yetərsizliklərdir. İstifadə edilən öyrətmə üsulları hər uşaq üçün keçərli olmaya bilir. Təhsil üçün istifadə edilən materiyallar bəzən uşağın yaşına, tutumuna uyğun olmur, hətta ehtiyacdan artıq olduğu üçün uşaq yüklənir. Fənlərin çətinliyi, dərs mühiti, stress və motivasiyanın olmaması ən böyük səbəblərdən biridir. Ev tapşırıqlarının çoxlugu uşaqda məktəbdən sıxılmağa səbəb olur. Bu da uşaqda həvəssizlik yaradır".



Onun sözlərinə görə, bu prosesdə valideynlərin tutumları çox önəmlidir: "Öncəliklə uşaqları diqqətlə dinləyib, özlərini rahatlıqla ifadə edə bilmələri üçün təhlükəsiz şərait yaratmaq, səbəblərini anlamaq və həll yolu üçün uşaqla birlikdə addımlar atmaq lazımdır. Onların maraqlarına yönəlmiş fəaliyyətlərlə zaman keçirməsinə şərait yaratmaq lazımdır. Evdəki tapşırıqları yerinə yetirmək üçün xüsusi vaxt intervallari təyin etmək lazımdır. Valideynlərin öz öhdəliklərini yerinə yetirməkdə ardıcıllığı uşaqları üçün öyrənməyə gəldikdə yaxşı nümunədir. Əgər uşağın dərs oxumaq istəməməsi uzunmüddətli və radikal bir vəziyyətə çevrilibsə, bir mütəxəssisə müraciət etmək faydalı ola bilər. Valideynlərin övladlarına dərs oxumaq üçün təzyiq göstərməkdənsə, onlara dəstək olması onların bu sahədə daha uğurlu olmasına kömək edir.

Uşaqlar özlərini uğursuz hiss edərlərsə, oxumaq istəməyə bilərlər və ya dərsdən sıxıla bilərlər. Motivasiya üçün uşağın başa düşüldüyünü ifadə edən sözlər, məsələn, "Bəli, bu mövzuda çətinlik çəkə bilərsiniz, sizi çox yaxşı başa düşürəm, amma bacararsınız", "Zəhmətinizə görə təşəkkür edirəm, əlinizdən gələni edirsiniz" istifadə edilməlidir. Uşaqlar ev tapşırığı və dərsləri ilə bağlı mənfi davranışlar göstərdikdə, valideynlər bu davranışı aradan qaldırmağa yanaşmaq əvəzinə, yalnız uşağı anlamağa çalışmalıdırlar.

Müəllimlər də uşaqların dərsə meylinin az olmasını başa düşmək və dəstəkləmək üçün bir çox strategiya hazırlaya bilərlər. Uşağın diqqətini cəlb etmək üçün təlim üsullarından hansının daha təsirli olduğunu müəyyən etmək faydalı olardı. Uşaqların dərsə marağını yaratmaq üçün diqqətini cəlb etmək lazımdır. Uşaqların bir-biri ilə əməkdaşlıq edərək öyrəndikləri qrup çalışmaları tələbənin oxumaq motivasiyasını artıra bilər. Dərslə bağlı uşaqlara kiçik vəzifələr verməklə onun dərslərdə fəal iştirakını təşviq etmək olar".

***Söylü Ağazadə***

# "Azərbaycan daxilində hər zaman müsbət mədəniyyətlərarası dialoq olub"



***"Altıncı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda aparılan müzakirələrdə bir daha diqqət çoxmədəniyyətli və böyük etnik müxtəlifliyə malik olan Azərbaycan cəmiyyətinin əsrlər boyu ən mühüm dəyərləri - tolerantlığı, qarşılıqlı hörməti, dostluq və tərəfdaşlıq kimi dəyərləri qoruyub saxlamasına yönəldi.***

Açılış mərasimində Prezident İlham Əliyev də bəyan etdi ki, Azərbaycan daxilində hər zaman müsbət mədəniyyətlərarası dialoq olub, ölkəmizdə yaşayan insanların, müxtəlif etnik qrupların və dinlərin təmsilçiləri bir ailə kimi yaşayır. İlk forumlarda da dövlət başçımız bəyan edirdi ki, biz istəyirik, bütün xalqlar, bütün dinlərin nümayəndələri bir-biri ilə sıx təmasda olsun, bütün problemləri açıq şəkildə müzakirə etsinlər". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Könül Nurullayeva deyib. Onun sözlərinə görə, Bakı, Azərbaycan belə mötəbər tədbirlərin keçirilməsi üçün artıq ənənəvi bir məkana çevrilib: "Təbii ki, bunun həm coğrafi, həm tarixi, həm də mədəni əsasları var. İctimai-siyasi quruluşdan asılı olmayaraq, heç vaxt Azərbaycanda milli, ya dini zəmində nəinki qarşıdurma, heç anlaşılmazlıq da olmayıb. Azərbaycanın müstəqil ölkə kimi inkişaf etdiyi dövrdə bu müsbət meyillər daha da güclənir.Yəni Azərbaycanda milli və dini dözümlülüyün, tolerantlığın yüksək səviyyədə olması bizim güc mənbəyimizdir. Hər bir cəmiyyətin gücü onun dini və milli müxtəlifliyindədir. Ev sahibi kimi Azərbaycan hesab edir ki, dini və milli amildən asılı olmayaraq, istənilən cəmiyyətdə normal münasibətlər qurmaq mümkündür"."Sülh və qlobal təhlükəsizlik naminə dialoq" devizi altında keçirilən 6-cı forumda da mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafına xidmət edən yeni ideyalar, təkliflər səslənir, mövcud problemlərin həlli yolları axtarıdı. Tədbirdə 110 ölkənin təmsil olunması da göstərir ki, forum çox mühüm beynəlxalq platformadır. Bu dəfə də ziyalılar, siyasətçilər, media və vətəndaş cəmiyyətinin nümayəndələri daha təhlükəsiz dünya naminə məhz Bakida bir araya gəldilər. Açılış mərasimində Prezident İlham Əliyevin də söylədiyi kimi, 2019-cu ildə Bakıda keçirilən 5-ci forumdan sonra dünya təhlükəsiz olmayıb. Biz yeni münaqişələri, yeni qeyri-sabitlik məkanlarını görürük. Belə mürəkkəb vəziyyətdə ən vacib məsələlərdən biri mədəniyyətlərarası dialoqu təşviq etməkdir.

2008-ci ildə əsası qoyulan "Bakı prosesi" də bu məqsədə xidmət edir. Ümumiyyətlə, "Bakı prosesi"nin əsas məqsədi siyasi, mədəni və dini sahədə müxtəlif faktorlar arasında əməkdaşlığı, mədəniyyətlərarası dialoq prosesini təşviq etməkdir. Bu illər ərzində "Bakı prosesi" həm mədəniyyətlərarası dialoqun qurulmasında, həm də beynəlxalq təşkilatların əməkdaşlığının inkişafında vacib platformaya çevrilib. Bu, dünyanın nüfuzlu beynəlxalq qurumlarını tərəfdaş kimi cəlb edən yeganə platformadır",- deyə o əlavə edib.Deputat bildirib ki, budəfəki forumda müzakirə olunan məsələlərdən biri də çoxtərəflilikdir: "Dövlət başçımızın da bəyan etdiyi kimi, Azərbaycan öz təcrübəsini göstərib. Biz qəti şəkildə çoxtərəfliliyə sadiqik. Rəsmi Bakı çoxtərəflilik dəyərlərini 120 ölkənin üzv olduğu Qoşulmama Hərəkatında 2019-cu ildən bu ilin əvvəlinə qədər təşviq edib.Aparılan müzakirələr, səslənən təklif və ideyalar da təsdiqləyir ki, dialoq sülhə aparan yoldur. Məhz "Bakı prosesi" də bundan sonra normallaşmanı, münasibətlərin qurulmasını nümunə kimi götürməyi təklif edir.Forumun gündəliyi onu deməyə əsas verir ki, Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi altında 2011-ci ildən keçirilən Dünya Mədəniyyətlərarası Dialoq Forumu mədəniyyətlərarası dialoq platformasına çevrilib. Forum iştirakçılarının işğaldan azad olunmuş ərazilərə səfəri isə xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan bu platforma vasitəsi ilə həm də işğaldan azad olunmuş ərazilərdəki real vəziyyəti beynəlxalq ictimaiyyətə təqdim edir".

***Ləman Sərraf***

# Fırçadan silaha uzanan əllər



Fırçadan silaha uzanan əllər....İbadov Rauf Məhərrəm oğlu. Meğri-Lehvaz İcması adından icma üzvləri ilə könüllü qəhrəman Raufun doğulduğu,boya-başa çatdığı Saray qəsəbəsindəki ata ocağına baş çəkdik. Rauf 2020-ci il iyul ayının 12-də Tovuz döyüşləri zamanı şəhid olmuş səngər general Polad Həşimovun ölümündən sonra ailə üzvlərindən xəbərsiz Abşeron rayon Hərbi Komissarlığına yollanıb könüllü orduya yazılır. Polad Həşimovun yaşadığı binaya gedib anasının balkondan ağlamağını görür. Evə dönəndə xəstəxananın cərrahiyyə şöbəsində çalışan yorğun anasının yatmış görür. "Ana, sən yatmısan, amma Polad Həşimovun anası balkondan durub ağlayır. Dur, ana, dur. Sən axı, necə yata bilmisən? Rauf anasına səslənir. Rauf Memar İnşaat İnstitunun məzunu idi. Bu gün sənin doğulduğun eldəyik. Rauf həm rəssam, həm heykəltəraş həm də ibadət əhli idi. Rauf, sənin rəssamlıq dünyan çox çətin və düşündürücüdür. Rəsm fırçalarına toxunuram. Fırçalarda quruyub-yapışmış rənglər qalıb. Axırıncı hansı əsəri çəkmək istədin? Amma tələsdin döyüşə. Səni döyüş gözləyirdi. Nədənsə rəsmlərin, rəssamlıq dünyan daha çox ağqara rənglərin çalarıdır.

Rəsm əsərlərin arasında Polad Həşimova, Mübariz İbrahimova olan bir xüsusi rəğbəti gördüm. Əllərin titrəyərək sonuncu dəfə rənglərə toxundun. Qayıdım iri bir tablo yaradacam dedin: pıçıltı ilə "Zəfər tablosu".Raufun fırçasında süzülən rənglər, yaratdığı əsərlər bir başqa aləmin dünyasıdır, həm də Raufun öz dünyasıdır. Rauff, indi isə sənin haqqında kitbalar yazılır, görüşlər keçirilir, sənin igidliyindən danışılır. Sənin ömrün, sənin düşüncə tərzin, öz şəkillərin və rəsmlərin misralara çevrilir. 24 illik ömür payında sən çox böyük alın yazısı yaşamısan. Bu gün sənin rəsm qalereyanda xalq rəssamları dəqiqələrlə çəkdiyin rəsmlərin qabağında dayanır, mən verdiyin kətan üzərinə səpdiyin o rənglər düşündürü, hətta xalq rəssamlarını. Rauf, bilirsən sənin yaradıb qoyub getdiyin əsərlər insanları düşündürür: akademik, alim, yazıçı, xalq rəssamı, məktəblilər dönədönə sənin rənglər dünyanın qonağı olublar. Düşündürücü əsərlərin sənə rəssamlıq dünyanda bir başqa dünya yatır. Bizlər sənin bu fəlsəfi, düşündürücü, bəzən sirrini aça bilməyəcəyimiz dünyanı oyada bilmirik, axı o sənin dünyandır. Sən isə yoxsa, igid Rauf.

Rauf, nədən əsərlərində qara rəngləri çox sevirdin. Əsərlərinə baxanda sevgi rəsmlərində də üz çevirib gedirsən? Çünki beynində, ancaq döyüş var idi. Bir kimsəyə sevgi ümidi vermədin, hətta valideynlərinə ailə qurmaqdan vacib işləi var dedin.

Könüllü qəhrəman Rauf İbadov döyüş zamanı manqa komandiri olub. Yaralı döyüş yoldaşını 20 km məsafədən təkbaşına çıxarıb. Döyüş yoldaşlarına dönədönə deyirmiş: "Qələbə çalsaq arzumdur Şuşanı, Cıdır düzünü rəsmlərimdə təsvir edim". Arzuların idi. Rauf telefonunun kodunu 44-44 yazmışdı. Hansı bir hiss onu buna məcbur etmişdi, yoxsa ürəyinə dammışdı tezliklə qələbənin baş verəcəyini? Qələbəmizə tam 15 gün qalmış qəhrəmancasına şəhid oldun. Qurumayan fırçalar, solmayan rənglər kətan üzərinə çəkilməyən nə qədər əsərlərin yarım qaldı.

İbadovlar ailəsi, Məhərrəm müəllim, Zərnigar xanım, bağışlayın qapınızı gec döydük. 3 il az müddət deyil, bizləri bağışlayın. Həyatın hər anı, hər saniyəsində ciyərparanız olan Raufun ruhu şad olsun. Sizlər nə qədər mənəvi zəngin insanlarsınız. Yaradanın seçilmişləri olur. Zəkalı, fəlsəfi, düşüncə sahibləri –fitri istedadlar olurlar. Yaradan çox vaxt seçilmişləri öz dərgahına tez aparır. Rauf da seçilmişlərdən idi. Tanrı dağında oaln ruhuna salamlar. İgir şəhid Rauf. Nüvədi kəndinin fəxri, fəxarəti, qeyrət qalası. Ruhun şad olsun, İgid Rauf.

***Cəmilə Babayeva***

# İki bədən, bir baş



***Mən danışanda adımı ya görməmiş, ya geridə qalmış, ya da sözbaz qoyanlar var. Elə bilməsinlər ki, qulağıma çatmır. Lakin gəlin, hərdən əyri oturaq, düz danışaq. Mən sizə sual verim, siz də mənə, görək burada görməmişlik nədir, sözbazlıq nədir, geridə qalmaq nədir. Yaxşı, tutaq ki, oturmuşuq, söhbət edirik. İndi mən nağıl edim, siz də qulaq asın. Metroda eskalatorla aşağı enirəm, ya da fərqi yoxdur, yuxarı qalxıram. Görürəm ki, uzaqdan iki adam yanaşı enir və ya qalxır. Lakin bu, necə iki adamdır ki, bir başı var.***

**FELYETON**

Bismillahir-rəhmanir-rəhim, deyirəm öz-özümə. Yəqin yenə beyindaxili təzyiqim qalxıb, gözüm yaxşı seçmir. Başlayıram çantamı qurdalamağa. Axtarıb eynək qabımı tapıram. Açıb içindən eynəyi çıxarıram, geyinirəm gözümə, baxıram ki, vallah, qarşıda iki adam, budur enir, lakin bunların bir başı var.

Deyirəm, ay yazıq, gör nə günə qalmısan ki, ta eynəklə də gözün görmür. Bir xeyli belə deyinirəm. Təzədən çıxarıb dəsmalı eynəyimi bir də yaxşı-yaxşı silir və gözümə qoyuram. Bu dəfə əks istiqamətdəki eskalator yaxınlaşır və mənə imkan yaranır ki, kor didələrimlə bayaqdan bəri gözlərimi dikdiyim mənzərəni görə bilim. Baxıram ki, bəli, mən heç də yanılmamışam. Burada iki nəfər edir, lakin yenə də bir başı var. Biri oğlandır, biri qız. Qızın başı oğlanın sinəsində, gödəkcəsinin yaxasının içinə girdiyi üçün mən onları səhərdən bəri iki bədənli, bir başlı görürəm. Sonrakı günlərdə də uzaqdan gözümə belə mənzərə sataşanda bu dəfə ta nə əziyyət çəkib gözümü zilləyirəm, nə də lap çox əziyyət çəkib çantamı açıb, gözlüyümü çıxarıb gözümə taxıram.

Bu dəfə deyirəm, ay binəva, səbrin olsun da, bir dəqiqəyə, dəqiqə yarıma eskalator sən tərəfə enəcək, ya da qalxacaq, sən də hərdən gördüyün mənzərəni yenidən görəcəksən. Belə edirəm və görürəm ki, hə, eynidir, iki bədən, bir başdır qarşıdakı. Başlardan biri digər bədənin sinəsi üzərində bərqərar olduğundan kənardan adama iki bədən, bir baş təsiri bağışlayır. Bu dəfə deyirəm ki, elə yaxşı ki, gözün zəif görür. Kor olsa hələ, bundan da yaxşıdır.

İndi gəlin mənə min dəfə deyin ki, ay görməmiş, ay geridə qalmış, ay sözbaz. Nə deyirsiniz, deyin, cəhənnəmə deyin. Mən də deyirəm ki, cəmiyyət arasında iki bədən, bir baş ola bilməz, hər kəs başını öz üzərində gəzdirməyə məcburdur. Bunu görməzdən gələ, "müasirlik" kimi qəbil edə bilmərəm. Məcburam ki, söz edib danışam ki, ürəyim də partlamasın. Siz görməmiş, geridə qalmış, sözbaz olmayın da... Mən beləyəm.

***Mətanət Məmmədova***

# Səfir Mark Libbin Xədicə İsmayılla nəyi müzakirə edə bilər?

*Qərbin və ABŞ-ın qaranlıq dairələri ölkəmizin dünyada güc mərkəzinə çevrilməsindən ciddi narahat olmağa başlayıblar. Son vaxtlar ölkəmizə qarşı qarayaxma kampaniyasının və qərəzli qətnamələrin qəbul edilməsi, şər və böhtanlardan ibarət olan açıqlamaların verilməsi, bəyanatların səslənməsi, məhz məkrli xarici qüvvələrin ölkəmizin uğurlarına kölgə salmağa hesablanan fəaliyyətinin nəticəsidir.*



ABŞ-ın Azərbaycandakı səfiri Mark Libbinin özlərinə yaxın media nümayəndələrinin iştirakı ilə media azadlıqlarına dair gizli toplantı keçirməsi okeanın o tayından ölkəmizə qarşı qara niyyətli planların hazırlandığını deməyə əsas verir. Əgər səfirin niyyəti və məqsədi saf və aydın olsa idi, gizli toplantı keçirməzdir. Digər tərəfdən həmin toplantıya "Azadlıq" radiosunun keçmiş əməkdaşı, "Toplum" TV-nin təsisçisi və direktoru Xədicə İsmayıl kimi qazanda fırtına yaratmaq istəyən təxribatçıları başına toplayıb, Azərbaycanla bağlı dediqodu xarakterli müzakirələr aparmazdır. Sual olunur, bu tip görüşlə özünü hörmətsiz vəziyyət salan səfir X.İsmayılla nəyi müzakirə edə bilər? Yeni layihəmi, yoxsa növbəti hay-küy yaratmağa xidmət edə biləcək açıqlamaların verilməsinə təhrik edilməsi? Hər halda, "od olmasa tüstü çıxmaz", - deyiblər. Səfir boş yerə görkəmi və daxili aləmi tamamilə ləkdən ibarət olan şəxslə görüşməyə həvəsli olmaz. Yəqin ki, qısa müddət sonra görüşün məqsədi və müzakirə olunan məsələlər, qəbul edilən qərarlar cəmiyyətə aydın olacaq. El məsəlidir, "Cidanı çuvalda gizlətmək mümkün deyil". Başqa bir el məsəli də var. Sadə məsəl etik qaydalara zidd olduğundan qeyd etməyə lüzum bilmədim. Sadəcə, onu qeyd etmək olar ki, səfir öz diplomatik missiyasından kənar hərəkətlərə yol verir.

### Səfir diplomatik etiket qaydalarını pozur

Səfirin diplomatik etiket qaydalarını pozmasını sübut edən məsələlərdən biri də ondan ibarətdir ki, bu şəxs Azərbaycanın döyünən ürəyi olan Türk dünyasının mədəniyyət paytaxtı Şuşamıza getməkdən imtina edir. Niyə? Suala cavab verməkdə çətinlik çəkdiyi şübhəsizdir. Sadəcə iddia edir ki, "Şuşa kimi şəhərlərə koordinasiya şəkində getmək lazımdır". Fakt ondan ibarətdir ki, Fransanın ölkəmizdəki səfiri də işğaldan azad edilən Şuşa şəhərinə getməkdən imtina edib. Onu da nəzərə almaq lazımdır ki, istər ABŞ-ın, istərsə də Fransanın Azərbaycana qərəzli mövqe sərgilədikləri bütün tərəqqipərvər xalqlara, demokratik dövlətlərə bəllidir. Bu da hər iki dövlətin qaranlıq dairələrinin erməni lobbisinin təsiri dairəsində olduqları mübahisə mövzusu olmayan faktlardandır. Məhz erməni lobbisinin tələbi əsasında ABŞ-ın Azərbaycandakı səfiri Mark Libbinin Şuşaya getmədi və bu azmış kimi, təxribatçılardan ibarət olan xarici ölkələrin Azərbaycandakı media təmsilçilərinin iştirakı ilə səfirlikdə gizli toplantı keçirir. Həyasızlığı özündə ehtiva edən hal ondan ibarətdir ki, gizlin toplantının keçirilməsi ifşa olunduqdan sonra səfir üzrxahlıq etmədi, əksinə, hərəkətlərinə və əndrəbadi əməllərinə təəccüb doğuran formada don geyindirməyə çalışdı. Bu isə sözügedən şəxsin və onun xaricdəki erməni dostlarının xislətinin iyrəncliyindən irəli gəlir. Ümumiyyətlə, görünən ondan ibarətdir ki, artıq qara niyyətli xarici maraqlı dairələr və antimilli ünsürlər ölkəmizə qarşı qarayaxma kampaniyalarını açıq müstəviyə çıxarıblar. Yəni, əvvəllər pərdəarxası Azərbaycana qarşı qarayaxma kampaniyası aparırdılar, maskaların yırtılmasından və kimin kim olduğu məlum olduqdan sonra şəbəkə açıq formada ölkəmizə qarşı məkrli məqsədini nümayiş etdirməyə başlayıb. Hətta vəziyyət o həddə çatıb ki, bütün təxribatçı qruplar, trollar, antimilli ünsürlər böyüklü-kiçikli Azərbaycana qarşı qərəzli proqramı həyata keçirməyə səfərbər olunublar. Fikir verin, əvvəllər faşist dərnəyində adı sonunculardan olan Frank Şvabe gözlənilmədən meydana çıxıb, faşist ideologiyasının əsas təbliğatçılarından və ideoloqlarından olduğu nümayiş etdirildi. Hətta ona AŞPA - da Almaniya Bundenstaqının əsas sözçüsü statusu verildi. Araşdırmalarla bəlli oldu ki, ona xüsusi görəv verilməsinin başlıca səbəblərindən biri Almaniyanın Azərbaycana qarşı qərəzli planlarının həyata keçirilməsində yüksək fəallığının həyata keçirilməsinin istənilməsidir. Məhz tələblərin nəticəsidir ki, Frank Şveber AŞPA-da Azərbaycanın səsvermə hüququnun məhdudlaşdırılması layihəsi ilə çıxış etmişdir. Lakin Azərbaycan nümayəndə heyəti məkrli plandan xəbərdar olduğundan F.Şveberi və onun ətrafında olanları rüsvayçı duruma saldı.Yəni deputatlarımız öncədən qurumu tərk etdilər.

### "Qərb öncədən belə bir qərar qəbul etməsəydi, AŞPA-da Frank Şvabeni heç vecinə alan da olmazdı"

Xaricdə yaşayan, lakin son vaxtlar antimilli ünsürlərdən fərqli yanaşmalar ortaya qoyan müsavatçı Elbəyi Həsənli haqlı olaraq paylaşdığı statusunda qeyd edir ki, kollektiv Qərb öncədən belə bir qərar qəbul etməsəydi, AŞPA-da Frank Şvabeni heç vecinə alan da olmazdı. E.Həsənli F.Şveberin kimliyini də paylaşdığı statusunda açıq göstərməyə çalışır: "Mən Frank Şvaberin ingilis və alman dilində olan çıxışlarına nəzər salmışam. Ermənistan-Azərbaycan qarşıdurmasında o, hansı mövqedədir? Bu adamın Ermənistan və ermənilərə xüsusi simpatiyası var. Almaniya Parlamenti 2016-cı ilin iyununda qondarma "erməni soyqırımı"nı rəsmən tanıdı. Bu işdə Frank Şvabenin danılmaz xidmətləri var. AXCP rəhbərliyi bunu bilmirmi? Bilir. Frank Şvabe dəfələrlə bəyan edib ki, Azərbaycan Dağlıq Qarabağda olan erməni abidələrini məhv edir. Azərbaycan Naxçıvanda olan erməni abidələrini isə çoxdan yer üzündən silib. Xub, "prinsipial demokrat" bilmirmi ki, ermənilər işğal altında saxladıqları Azərbaycan torpağında olan abidələrin, xüsusən məscidlərin demək olar ki, hamısını darmadağın edib. Azərbaycan əsgəri o boyda Qarabağda bayraq sancmağa bir bina tapmırdı. Ağdamın Qafqazın Xirosiması adlandırılmasından da alman deputatın xəbəri olmayıb? Biri çıxıb mənə Frank Şvabenin bir çıxışını göstərsin ki, orada alman deputat erməniləri Azərbaycanın tarixi abidələrinə qarşı vandal münasibətə görə ittiham edib.

Belə bir şey yoxdur. Frank Şvabe sizin dediyiniz kimi "prinsipial demokrat" olsaydı heç olmasa ayda-ildə bir dəfə erməniləri də tənqid edərdi. Etməyib, əksinə, həmişə Azərbaycana qarşı iftiralar yağdırıb. Məsələn, o tələb edir ki, Azərbaycan Qarabağı tərk etmiş separatçı ermənilərin geri qayıtmasını təmin etsin. O, ermənilərin Qarabağdan gedişini də "etnik təmizləmə" adlandırıb. Tutaq ki, bu, həqeqətən də etnik təmizləmədir. Bəs axı 30 illik işğal zamanı 1 milyona yaxın soydaşımız ermənilər tərəfindən etnik təmizləməyə məruz qalmışdı. "Prinsipial demokrat" nədən bu boyda məsələnin üstündən həmişə sükutla keçib. Nədən bir dəfə Xocalı qırğınından danışmayıb? Təbii ki, bu kimi sualların cavabı AXCP və digər müxalifətçilərə gün kimi bəllidir".

### Əli Kərimli "PKK"-ya açıq şəkildə dəstək verir

Elbəyi Həsənli Əli Kərimlini və onun ətrafındakı trolları da F.Şveber kimi müdafiə etmələrinə görə tənqid edir: "Prinsipial demokrata salam olsun. Yox, bu mənim fikrim deyil. AXCP-nin parlaq simalarından olan Asif Yusifli belə deyir. Azərbaycan müxalifəti bütövlükdə Frank Şvabenin tərəfindədir, onu müdafiə edir. Dünənə qədər elə həmin bu insanlar Ermənistana görə Azərbaycanın üzərinə yeriyən Fransanı birbaşa və dolayısı ilə müdafiə edirdilər". Ümumiyyətlə, Azərbaycan müxalifəti milli və dövlətçilik məsələlərində son dərəcə sürüşkən mövqedədir".

E.Həsənli S.Həzinin "PKK" lideri A.Ocalının silahdaşı Dəmirtaşla bağlı mövqeyini də xatırladır: " AXCP-nin sədr müavini Seymur Həzi Türkiyədə keçirilən prezident seçkisi ərəfəsində Öcalanın heykəlini uçaltmağı təklif edən Dəmirtaşı "Türkiyə üçün kilid siyasətçi", "bu coğrafiya üçün cəsur nümunə" adlandırdı. Öncə düşündüm ki, bu, qurama söhbətdir. Az sonra bəli oldu ki, bu, həqiqətdir. Mən buna öncə nədən inanmadım? Çünki mən Seymur Həzini milli dəyərlərə və dövlət maraqlarına sadiq olan gənc və perspektivli siyasətçi hesab edirdim. Onun uydurma ittihamlarla həbs olunmasına da dəfələrlə etirazımı bildirmişdim. Nədən Seymur Həzi belə bir bəyanat verməşdi? Əminəm ki, o, Əli Kərimlinin tələbini icra edib. Bəs Əli Kərimli bu sifarişi haradan almışdı? Amerikadan. Düşünə bilirsizmi, Elçibəy kimi əfsanə bir ismin bir vaxtlar rəhbəri olduğu partiya "PKK"-ya açıq şəkildə dəstək verir. Səbəb o ki, Amerika, bütövlükdə Qərb Ərdoğanın yox, məhz ermənilərə qarşı daha xoş münasibətdə olan, müvafiq olaraq Azərbaycana dodaq büzən Kılıclaroğunu iqtidarda görmək istəyirdi. Deməli, AXCP hakimiyyətə gəlmək sevdası ilə faktiki olaraq ermənilərin maraqlarından çıxış edib".

Bir sözlə, görünən ondan ibarətdir ki, dağıdıcı müxalifətin və xaricdəki antimilli ünsürlərin, xüsusilə də onları idarə edən maraqlı şəbəkənin anti-Azərbaycan kampaniyası uğursuzluğa düçar olur. Onları rüsvay və ifşa edənlər isə daha çox özlərinin becərdikləri bağdan bəhrələnmiş şəxslərdir. Bu isə onu deməyə əsas verir ki, yaxın vaxtlarda dağıdıcı müxalifətin və xaricdəki antimilli ünsürlərin arasında ciddi çatlar yaranacaq. Bu çatlar sonrakı mərhələdə genişlənəcək və nəhayət, mərkəzdənqaçma meyilləri ilə müşahidə olunacaq.

***İLHAM ƏLİYEV***

# "9 May Azərbaycan tarixinin bir hissəsidir"




XX əsrdə İkinci Dünya Müharibəsi illəri bəşəriyyət üçün dəhşətli, faciəli fəlakətlər dövrü kimi yadda qalmışdır. Almaniyada və İtaliyada yaranmış faşizm nəinki bu ölkələrin özünü, hətta bütün bəşəriyyəti təhlükə altına almışdı. 9 may 1945-ci ildə Ali Reyx rəhbərliyi Almaniyanın qəti şəkildə təslim olması ilə bağlı Aktı imzalamaqla bəşəriyyət tarixində ən qanlı müharibəyə son qoydu. Böyük Vətən müharibəsi illərində xalqımız həm ön, həm də arxa cəbhədə çox böyük qəhrəmanlıq və şücaət nümunələri göstərmişdir. Hər il 9 may – Faşizm Üzərində Qələbə Günü təntənəli surətdə qeyd olunur. 9 May qələbə günü necə qeyd olunmalıdır? SİA mövzu ilə bağlı hərbi ekspertlər Ədalət Verdiyev və Emin Həsənlinin fikirlərini öyrənib.Hərbi ekspert Ədalət Verdiyev: "9 May günü Böyük Vətən müharibəsində qələbə günüdür. Bu qələbə günü Azərbaycanda da haqlı olaraq qeyd olunur. Çünki bu qələbənin əldə olunmasında 600 min nəfər azərbaycanlı iştirak edib. 10 minlərlə azərbaycanlı qəhrəmanlıq və şücaət göstərib. Lakin hazırda bizim Vətən müharibəsində öz qələbə günümüz var. 8 Noyabrı biz hər il böyük coşqu ilə qeyd edirik. Hesab edirəm ki, 9 May da qeyd olunmalıdır. Amma 8 Noyabr qələbə gününün, təbii ki, hər evdə, hər ailədə, hər təşkilatda geniş şəkildə qeyd olunması doğru addımdır. Bu Vətən müharibəsindəki qələbə günü Azərbaycan yaşadıqca yaşayacaq"."Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maariflendirmə" İctimai Birliyinin sədri, hərbi ekspert, "Hərbi And" qəzetinin baş redaktoru Emin Həsənli: "9 Mayla bağlı müxtəlif fikirlər var. Bir qisim deyir ki, bu Sovet dövrünün bayramıdır, bir qisim də deyir ki, biz 9 Mayı qeyd etməliyik. Böyük Vətən müharibəsində 700 minə qədər azərbaycanlı iştirak edib. Onlardan 300 mini həlak olub, işğala qarşı mübarizə aparıb. Azərbaycanlılar həm ön cəbhədə, həm də arxa cəbhədə fədakarlıq ediblər.

Qələbənin həll edilməsində Bakı nefti əsas amil olub. Bunu o vaxt SSRİ rəhbərləri dəfələrlə çıxışlarında bildiriblər. Təyyarələrin 90%-i, texnikanın 70%-i Bakı nefti ilə işləyib.Azərbaycanlıların bir çoxu Sovet İttifaqı ordeni alıblar, orden, medallarla təltif olunublar. Berlinə qədər döyüşüblər. Bu, böyük qəhrəmanlıqdır. Təkcə Azərbaycanda yox, Rusiyanın tərkibində yaşayan azərbaycanlılar da bu müharibədə yaxından iştirak ediblər. Azərbaycanlıların ən böyük itki verdiyi müharibədir. İkinci dünya müharibəsi dünyanın miqyas, həm də itki baxımından ən böyük müharibəsi idi. Bu müharibə faşizmə, soyqırıma, Hitler Almaniyasına qarşı idi. Biz bunu unutmamalı və daim gündəmdə saxlamalıyıq. 9 May Azərbaycan tarixinin bir hissəsidir. Həmin gün faşizmə son qoyuldu, azərbaycanlıların böyük fədakarlıq etdiyi müharibə qələbə ilə sonlandı. Qəhrəmanlıq salnaməsinin çox böyük önəmi var. Biz bu günü unutmamalıyıq. İkinci dünya müharibəsi veteranları Azərbaycanın müstəqilliyi əldə olunduqdan sonra ölkənin ictimai-siyasi həyatında da yaxından iştirak ediblər. Ümummilli Lider Heydər Əliyev həm Sovet dövründə, həm də ondan sonra bu insanlara yüksək qiymət verib. Mehdi Hüseynzadə başda olmaqla haqların bərpa olunmasında iştirak edib onlara qayğı, diqqət göstərib. Onlar da Azərbaycanın proseslərində yaxından iştirak edərək gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında, Qarabağın azad olunmasında yaxından iştirak ediblər. Veteranların bir çoxunun fəaliyyəti ilə yaxından tanış olmuşam, onların ölkəmizə nə qədər bağlı olduğunu da bilirəm.Düzdür, müstəqil Azərbaycanın Vətən müharibəsi oldu. Xalq olaraq bu müharibədə qalib gəldik. 8 Noyabr Azərbaycanın zəfər günüdür. Bu bayramın əhəmiyyəti çox böyükdür. Bu bayram heç bir bayramla müqayisə edilməyəcək dərəcədə önəmlidir. Ancaq biz 9 May qələbə gününü də qeyd etməliyik".

***Söylü Ağazadə***

# İtirdiyimiz xüsusiyyətlər: ədəb



***Yazılı qaynaqlarda, izahlarda “ədəb” sözü insanları başqalarına qarşı nəzakətli, insanlara qarşı xoşrəftar olmağa səsləmək, ayıb işlər görməkdən çəkinmək, öz yerini bilmək, həddi aşmamaq kimi qiymətləndirilir. Ədəb, bir cəmiyyətdə əməl edilməli olan, insanlar arasında davranışı tənzimləyən, nəzakət, hörmət və mədəniyyət kimi nəcib xüsusiyyətləri özündə cəmləşdirən qaydalar məcmusudur deyə bilərik.***

“Məyər elm bir heçmiş, illah ədəb, illah ədəb...” deyir Mövlanə. Həm də deyir ki, ədəbli insan ədəbinə görə susar, ədəbsiz susdurdum deyə zənn edər. Əsrlər keçib, amma ədəb məsələsi həmişə gündəmdə olan, insanları narahat edən məsələ olaraq qalır. Yaxşı, nədir ədəb? Mənə və tərkibcə günümüzdə necə qəbul edilir? Ədəbin ölçüsü, norması, çəkisi varmı? Yoxsa, sadəcə kitablarda, filmlərdə, öyüd və məsləhətlərdə



qalıb ancaq?

Ədəb həm də ədəbiyyatın qayəsidir. Ədəbiyyat nümunələri həm də ədəbi ehtiva etmirmi? Gözəl davranmağı, həyanı, arı, namusu, mədəniyyəti, nəzakəti, ədaləti, mərhəməti, inamı, etibarı, dostluğu, yoldaşlığı – hər şeyi bizə ədəbi nümunələr aşılamayıbmı? Bütün böyük ədiblər, mütəfəkkirlər öz əsərlərində ədəbin dəyəri barədə yazmayıbmı?

Ədəb, yaşadığımız cəmiyyətin adət-ənənələrinə uyğun, kimisə incitmədən, narahat etmədən, zərər vermədən, böyük-kiçiyin yerini bilərək davranmaqdır. Gözəl ədəb, həddini bilmək, nə olursa olsun o həddi, sərhəddi aşmamaq deməkdir. Axı hamımızın bir sərhəddi var çevrəsində. Birimizin həddinin bitdiyi yer başqa birimizin sərhəddinin başladığı yerdir. Bu hədd ikitərəfli münasibətlərdə, cəmiyyətdəki davranışlarımızda harada dayanmağımız barədə siqnal verən ölçü vahididir. Əgər hər birimiz öz həddimi bilsək və ədəbimizi qorusaq, o zaman cəmiyyətdə nə fitnə olar, nə nifaq salınar, nə qəzəb çuğlayar, nə də qarşıdurma baş verər. Ədəb olan hər yerdə sevgi, hörmət, sülh olacaq.

Ədəb insana xas xüsusiyyətdir və özünü öz nəzarətin altında saxlamaq deməkdir. Ədəb qaydaları bir insanın pasportudur, xarakterinin güzgüsüdür.




Ədəbli insan kimsəyə zərər vermir, pislik etmir, kobudluq göstərmir. Ədəbin nə insanın sosial statusuna, nə yaşına, nə də mövqeyinə dəxli yoxdur, ya ədəblisən, ya da ədəbsizsən, bu qədər sadədir məsələ.

İnsan həmişə axtarışdadır – elm axtarır, həqiqət axtarır, əbədiyyət axtarır. İnsan daim oxuyur, oxuduqca öyrənir, öyrəndikcə kamilləşir. Kamillik yolunda ədəb mütləqdir. Ədəbi olmayan kamilləşə bilməz, bütün dünyanın kitablarını oxusa, bütün elmlərə yiyələnsə belə. Ədəbi olmayan alimi cəmiyyət qəbul etmir, elm nəyə yarayar onu təbliğ edən ədəbsiz olsa?

Əgər bir gün ədəbsizlikdən yazacaq olsam, o zaman o yazının həcmi çox böyük olacaq deyə düşünürəm. Çünki günümüzdə ədəbdən çox ədəbsizlik görürük ətrafımızda. Hamı ədəbdən danışır, amma hardasa bir yerdə, bir anda ədəbsizlik edir. İnsanların ədəb haqqında məlumatı çoxaldıqca ədəbsizliyi artır sanki. Biz elə bil bu kinonu dəfələrlə görmüşük axı, kimdə nə yoxdursa ondan danışır adətən. Davranışlarımız haradasa bizi ələ verir, ədəb zorakı olursa davamlı olmur çünki.

Səkidə qarşıdan gələn insanın boğazını arıtlayıb yerə tüpürməsi ədəbdən kənardır, amma hər gün görürük, elə deyil? İctimai nəqliyyatda oturub başının üstündə çəlikdə dayanan qocanı, qarnı burnunda hamiləni, qucağında uşaq tutan qadını görməzdən gələnlər də çoxdur, onlar ədəblidirlər? Piyadaya yol verməyən sürücü, xanımına zorakılıq edən kişi, yoldaşını döyən məktəbli, kobudluq edən satıcı - hər addımda görə bilirik ədəbsizi. Ədəbi olmayanlar təkcə özlərinə ziyan vurmurlar, dolayısı ilə başqalarına, cəmiyyətə pislik edirlər. Onların ədəbsizliyi və kobudluğuna görə başqaları əziyyət çəkir.

İctimai yerlərdə siqaret çəkib tüstüsünü qarşıdakının üzünə üfürən,



tum çırtlayıb qabığını yerə tüpürənlər, saqqız şişirdib insanlara qarşı şar kimi dolduranlar, içdiyi suyun şüşəsini 2 metr yaxınlıqda olan zibil qutusuna atmaqdansa yerə atanlar, hazır qidanın qablaşdırmasını skamyanın taxtaları arasında dürtənlər ədəblidirmi sizcə?

Gənclərin ədəbsizliyindən şikayətlənirik bu gün daha çox. Onları yetişdirib cəmiyyətə göndərən valideynlərini unuduruq. Onlar çoxmu ədəblidir? Ədəb, ailədə öyrədilən bir xüsusiyyətdir, valideynin öyrətmədiyini yüz müəllim yığılsa öyrədə bilməz. Bəlkə də biz çox şey gözləyirik gənclikdən, fərqində deyilik. Mükəmməlçiyik, xəta qəbul etmirik. Ola bilər? “Bizim vaxtımızda belə deyildi”, “bizim dövrümüzdə ədəb, həya vardı”, “indiki gənclər çox mədəniyyətsizdir”, “bu gənclərə heç tərbiyə verməyiblər” deyən insanlar hər gün bir az da çoxalır, siz də fərqindəsinizmi?

Cəmiyyətin əxlaqına uyğun davranmaq, mövcud dəyərlərə hörmət etmək, nəzakətli və hörmət çərçivəsində hərəkət etməkdir ədəb. Hər nə qədər son illər yoxa çıxsa da, gənclərin əksəriyyətində müşahidə etməsək də, ədəb, əslində, insana öyrədilən ən vacib xüsusiyyətdir. Gözəl əxlaq, ədəb, həya, mədəniyyət insanın zinətidir.

Ədəb insanın geyimidir. Bunu “geyim əxlaq göstəricisidir” məsələsi ilə eyniləşdirməyək amma. Ədəb insanın üzərinə biçilmiş görünməz, həm də göstərilə bilən geyimdir. O geyim sizi ətrafda ən ədəbli insan kimi də tanıda bilər, ən ədəbsiz biri kimi də. Seçim həm bizim əlimizdədir, həm də ailəmizin. Hər ailə bir ədəbsiz yetişdirib göndərsə cəmiyyətə, yaranacaq xaosu təsəvvür edə bilirsinizmi? Hərəmiz öz övladımızı ədəbli yetişdirsək bəs? Cənnətə dönməzmi cəmiyyət?

***Lalə Mehralı***



Lalə Mehralı

# Mədəni evlilik, sivil ailə və vətəndaş nikahı

Ailə, valideynlər və uşaqlardan ibarət ən kiçik sosial quruluşlu müəssisədir və cəmiyyəti təşkil edən institutların ən vacibidir. Ona görə də tarixən güclü ailə quruluşu, güclü cəmiyyət ilə assossasiya olunub. Əgər bir cəmiyyəti süquta uğratmaq, əxlaqi dəyərlərini gözdən salmaq, bütün mənəvi dəyərləri tapdamaq istəyirsənsə öncə ailədən başlamaq lazımdır.

Əslində, ənənəvi azərbaycanlı ailəsindəki parçalanma, nəsillərarası fərqlər, boşanmaların çoxalması, vətəndaş nikahlarının və atasız uşaqların getdikcə artması bir qədər gözlənilən idi, çünki hadisələrin inkişafı bu sonu qaçınılmaz etmişdi. Lakin bu dərəcədə aşınma bir növ inqilab, çevriliş effektli oldu. Yəni biz bu həddi gözləmirdik, ona görə başımıza gələndə çaşdıq.

Parçalanmağa, əxlaqsızlığın adını, donunu, tərkibini dəyişib “vətəndaş nikahı” dedikləri vaxtdan başladıq. Vətəndaş nikahı adlan vəziyyət, iki şəxsin heç bir dövlət və yaxud qeyri-dövlət orqanı ilə razılaşdırmadığı, rəsmi təsdiqi olmayan könüllü ittifaqdır. Ona görə ittifaq deyirəm ki, onlar ailə olaraq tanınmırlar. Onları yalnız münasibətləri birləşdirir, bu münasibətləri təsdiqləyən heç bir hüquqi sənədləri yoxdur. Buna görə də dövlət onları ailə kimi qəbul etmir. Amma bu qəbul edilməyən evliliyə verilən ada baxın – vətəndaş nikahı. Nə qədər məsum səslənir, elə deyil? Hər ölkədə bir cür adlandırılır, “mədəni evlilik”, “sivil evlilik” kimi məsələn. Görürsünüz necə humanist ifadələr seçilir? Bizim ölkədə də təbliğatı aparılır, gənclərin nikaha daxil olmadan birlikdə yaşaması, cinsi münasibətdə olması açıq-aşkar təbliğ edilir yəni.

Bunun nəticəsidir ki, vətəndaş nikahı 10 il əvvəl nadir rastlanan vəziyyət idisə, bu gün normal qarşılanır ölkəmizdə. Tanınmışlar, məşhurlar çıxır efirdə vətəndaş nikahının normal olduğunu, evli sevgilisindən dünyaya uşaq gətirdiyini deyir. Televiziyalar əxlaqsızlığı təbliğ edir, utanmadan, qızarmadan, normalmış kimi. Atasız uşaqlar, anasının himayəsində böyüyən körpələr artır və bunun adını vətəndaş nikahı qoyurlar.

Ailə anlayışı bu qədər cılızlaşdısa bunun arxasında efir, telekanallar dırnaqarası sosial layihələr dayanır. O verilişlərlə qızlara asi olmağı, ərli qadınlara evdən qaçmağı öyrətdilər, evli kişilərin subay qız qaçırmasını, ensest münasibətləri normallaşdırdılar. Birbaşa yox, dolayı yollarla. Üsulluca, kirmişcə, lap pambıqla baş kəsmək kimi.

Bizim cəmiyyətdə ailə qurmaq, evlənmək deyəndə toy edilib nümayişkaranə gəlin getmək, gəlin gətirmək başa düşülür. Əgər gəlinin belinə qırmızı bağladınsa, xonça oynatdınsa, 500 nəfərin önündə toy etdinsə rəsmi nikaha ehtiyac duyulmur, gənclər ailə sayılır. Ən böyük səhv də burdan başlanır. Gənclər toy edir, bir evdə vətəndaş nikahında yaşamağa başlayır, övladları dünyaya gəlir, ya uşaq pulu almaq üçün sənədə ehtiyac olanda, ya da uşaq məktəbə gedəndə rəsmi nikah yada düşür. Bu vaxtadək ailədə doğulan uşaqlar qeyri-rəsmi yolla, nikahdankənar doğulmuş hesab edilir.

Araşdırsaq görərik ki, rəsmi nikahı olmayan ailələrdə ya hər iki tərəf, ya da qadın yetkinlik yaşına çatmamış evləndirilib. Azərbaycan qanunlarına görə 18 yaş nikah yaşı hesab edilir, istisna hallar üçün 17 yaşı da məqbul hesab edir qanunlarımız. Amma bəzi bölgələrimizdə 13-15 yaşda belə qızlar evləndirilir, bu halda rəsmi nikah üçün müraciət edə bilməzlər, qanunla cinayət məsuliyyəti daşıdıqlarını bilirlər. Bu halda bir dini nikahla məsələni bitmiş hesab edirlər.

Bir başqa problem isə ailələrin və gənclərin dini nikahı rəsmi nikahdan daha üstün hesab etməsi məsələsidir. Problem ondadır ki, ailə böyükləri toyqabağı gəncləri dini nikaha girməyə məcbur etdikləri qədər rəsmi nikahı dilə gətirmirlər. Azərbaycan dünyəvi dövlətdir və ailənin dövlət tərəfindən qanuni tanınması üçün rəsmi nikah şərtdir. Əks halda dövlət o ailəni tanımır, orda doğulan uşaqlara görə hər hansı maddi öhdəlik daşımır. Uşaqlar üçün verilən müavinət də bu səbəbdən rəsmi nikahı olan ailələr üçün nəzərdə tutulub.

Qeyri-rəsmi münasibətləri, bu münasibətlərdən doğulan uşaqları, nikahsız yaşamağı normallaşdırmağa verilən addır “vətəndaş nikahı” ifadəsi. Adını nə qoyurlar qoysunlar, yumşaltmağa, suvaq vurmağa çalışsalar da mahiyyəti eynidir - əxlaqsızlıq.



**Rusiya Federasiya Şurasının vitse-spikeri Konstantin Kosaçev Rusiya nümayəndə heyətinin tərkibində Azərbaycanın paytaxtında keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edib. "Moskva-Baku" portalına müsahibəsində Rusiya parlamentinin yuxarı palatasının sədr müavini dəyişən dünya və bugünkü geosiyasi çağırışlar fonunda Rusiya Federasiyası ilə Azərbaycanın strateji tərəfdaşlıq və müttəfiqliyinin niyə bu qədər vacib olduğunu və bu əlaqələrdə xüsusən nəyin əsas olduğunu izah edib. Müsahibəni oxucularımıza təqdim edirik.**

# Federasiya Şurasının vitse-spikeri: "Azərbaycan həqiqi müstəqil dövlət kimi dünyada nüfuzunu artırıb"



**- Konstantin İosifoviç, bu gün çoxqütblü dünyanın qurulduğu və Rusiyanın bu quruculuğun önündə getdiyi bir vaxtda bu geosiyasi proseslər fonunda Moskva ilə Bakının münasibətlərini necə xarakterizə edərdiniz?**

- Çoxqütblü dünya mövzusundan başladığımız üçün demək lazımdır ki, bu, yalnız suverenliyə malik olan, həqiqətən müstəqil və özünü təmin edən kifayət qədər çox sayda dövlətin iştirakı və qarşılıqlı fəaliyyəti ilə mümkündür. Müstəqil, özünü təmin edən və suveren olmaq üçün hər bir dövlətin, hər bir xalqın öz milli maraqlarını aydın dərk etməsi və onlarda güzəştə getməməsi, necə deyərlər, satışa çıxarılmasından imtina etməsi çox vacibdir. Bu baxımdan demək lazımdır ki, bu gün dövlətlər açıq şəkildə iki kateqoriyaya bölünür. Bunlardan biri suverenliyi alan və ya satan və bununla da dünya nizamının birqütblü modelini möhkəmləndirməyə çalışanlardır. Digər qrup bunu etməkdən imtina edənlərdir. Rusiya da, Azərbaycan da 2-ci qrupa aiddir.

Azərbaycan Respublikası özünün müasir tarixinin son üç onilliyi ərzində ardıcıl olaraq öz dövlətçiliyini qurub, öz milli maraqlarının aydın dərk edilməsinə əsaslanan siyasət yürüdür və mənim nöqteyi-nəzərimdən bu vəzifəni parlaq şəkildə yerinə yetirir. Bu, əlbəttə ki, sürətlə artan nüfuzda əks olunur. Məhz belə suveren siyasətin həyata keçirilməsinin zəruriliyini dərk edən Rusiya və Azərbaycan bu gün həmişəkindən daha yaxındır. Aydındır ki, Rusiya Federasiyası kimi Azərbaycanın da başqa tərəfdaşları var və bunda qınanılan heç nə yoxdur. Əsas odur ki, biz bir-birimizi strateji tərəfdaş və müttəfiq hesab edirik. Bu, Rusiya nümayəndə heyətinin Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək üçün işgüzar səfəri çərçivəsində mayın 2-də Bakıda İlham Heydəroviç Əliyevlə görüşümüz zamanı bir daha təsdiqləndi. Forumda həm Bakını, həm də Moskvanı narahat edən son dərəcə mühüm mövzular qaldırıldı. Və əminəm ki, Rusiya ilə Azərbaycan arasında strateji əməkdaşlıq ani deyil, fürsətçi deyil, bu, strateji perspektiv üçün nəzərdə tutulmuş, getdikcə daha çox konkret məzmunla dolu olan dövlətlərarası əməkdaşlığın uzunmüddətli layihəsidir.

**- İlham Əliyevin forumun açılışında qaldırdığı məsələlər Rusiyanın yanaşmaları və hazırkı geosiyasi vəziyyətdə çağırışlara baxışı ilə nə dərəcədə uzlaşır?**

- Azərbaycan Prezidenti forumda konseptual çıxış etdi. Və mənim nöqteyi-nəzərimə görə, onun geosiyasi vəziyyətə baxışı, eləcə də Azərbaycanın müasir dünyada yeri və rolu ilə bağlı təqdimatı dünya və Rusiya-Azərbaycan münasibətlərinin Rusiya üçün necə göründüyü ilə heç bir ziddiyyət təşkil etmir. Dövlət başçısının nitqinin çoxqütblüliyə həsr olunmuş hissəsi məni çox təsirləndirdi. Heç bir hərbi bloka qoşulmayan, 4 ildir Qoşulmama Hərəkatına liderlik edən və sədrliyi dövründə bu 2-ci ən böyük beynəlxalq təşkilata yeni nəfəs verən bir dövlət kimi Azərbaycanın mövqeyi yalnız tərifər doğurur. Bu, Azərbaycanın və şəxsən Prezident Əliyevin nailiyyətdir.

Həmçinin, Azərbaycan Prezidentinin çıxışının daha bir bloku diqqəti cəlb etməyə bilməzdi - Qərb dövlətlərinin çoxəsrlik müstəmləkəçilik ənənələrindən başlayaraq bu gün də davam etdirdikləri neokolonializm siyasətinin rədd edilməsi və pislənməsi və beləliklə, ümumbəşəri dəyərlərin gözəl şüarları altında neokolonial təcrübələr vasitəsilə insan hüquqlarının qorunması adı ilə digər dövlətlərin daxili işlərinə qarışmağın tənqdi edilməsi.

**- Bu gün biz Qərbin Rusiyanı sıxışdırmaq üçün müxtəlif "alətlərdən" istifadə edərək Cənubi Qafqaza təzyiq göstərmək cəhdlərini görürük. Və İlham Əliyevlə görüşünüzdə, anladığımız qədər, təhlükəsizlik mövzusu da qaldırılıb. Və Azərbaycan lideri bir daha vurğulayıb ki, Rusiya Federasiyası regionda bu təhlükəsizliyin ayrılmaz, mühüm tərkib hissəsidir...**

- Prezident İlham Əliyev istər forumdakı çıxışında, istərsə də bizim görüşümüzdə çox açıq şəkildə bildirdi ki, Azərbaycan öz təhlükəsizliyini müstəqil şəkildə, öz milli qüvvələri ilə təmin etməyə qadirdir. Bu, əslində, Azərbaycanın son vaxtlar Ermənistanla, o cümlədən Qarabağla bağlı münaqişə vəziyyətlərində nümayiş etdirdiyi şeydir.

Bu gün göz qabağındadır ki, Azərbaycanın nə vasitəçilərə, nə də hərbi müttəfiqlərə ehtiyacı yoxdur. Bu, hörmət tələb edən normal mövqedir. Və bu mövqenin arxasında Azərbaycan Respublikası ilə Rusiya arasında ümumi anlaşma var ki, Cənubi Qafqaza müdaxilə edən regiondankənar oyunçular sabitliyin pozulmasından başqa heç nə gətirə bilməzlər. Xoşbəxtlikdən, Moskvanın və Bakının bu məsələdə mövqeləri tamamilə üst-üstə düşür; bunu digər Zaqafqaziya ölkələrinin dərk etməsi qalır: Gürcüstanın və son vaxtlar təəssüf ki, yanlış istiqamətə doğru sürüklənən Ermənistanın.

**- Əliyev eyni zamanda Qlobal Şimal və Qlobal Cənub arasında körpülərin qurulmasının zəruriliyi mövzusunu qaldırdı. O, Azərbaycanın bu ilin noyabrında Bakının ev sahibliyi edəcəyi BMT-nin iqlim konfransı vasitəsilə belə bir cəhd edəcəyini bəyan edib...**

- Azərbaycan Şərqlə Qərb arasında yerləşir və bir çox müasir problemlərin qovşağındadır. Bu, iqlim probleminə də aiddir. Azərbaycan Prezidenti bizimlə görüşdə narahatlıqla dedi ki, bu gün Xəzərdə suyun səviyyəsində azalma var. Bu, təkcə Azərbaycan və Rusiya üçün transsərhəd məsələ deyil, qlobal xarakter daşıyır. Və bu, Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi COP29 Çərçivə Konvensiyasının Tərəflərinin Konfransında müzakirə olunacaq. Bundan əvvəl biz Xəzəryanı dövlətlərin parlament sammitini keçirmək və regional məsələləri, o cümlədən bu iqlim gündəmini müzakirə etmək niyyətindəyik.

COP29 qlobal miqyaslı hadisədir və Azərbaycan üçün bir növ çağırışdır, çünki belə böyük beynəlxalq tədbirlərə ev sahibliyi etmək üçün tələblər son dərəcə yüksəkdir. Rusiya şübhə etmir ki, Azərbaycan həmişə olduğu kimi bu çətinliyin öhdəsindən layiqincə gələcək.

Biz görürük ki, Fransa və Avropa Parlamenti bu sammiti necə pozmağa və beynəlxalq ictimaiyyəti buna qarşı çıxmağa inandırmağa çalışır. Ancaq gördüyümüz kimi, cəhdlər uğursuzluğa düçar olur. Çünki bütün dünya Azərbaycanın bu konfransın keçirilməsində hüquq və məsuliyyətini, imkanlarının səviyyəsini tanıdı. Bu, yüksək beynəlxalq tanınma və etimaddır. Bəzi Qərb qüvvələrinin sammiti pozmaq cəhdləri yeni fakt deyil və təəccüblü deyil, kifayət qədər adi haldır. Bu yanaşmanı Rusiyadan yaxşı heç kim bilmir. Məsələn, idmançılarımız bu il Parisdə keçiriləcək Olimpiya Oyunlarına buraxılmır. Halbuki, ekologiya kimi idman da mütləq beynəlxalq idman prinsiplərinə uyğun olaraq, siyasətdən kənar olmalıdır. Ancaq bunlar bizim "tərəfdaşlarımızdır". Biz uzun müddətdir ki, bu istiqamətdə mövqeyimizdə hər hansı dəyişiklik gözləmirdik və indiki şəraitdə işləyirik. Mən bir an belə şübhə etmirəm ki, Bakıda COP29-u boykot etmək cəhdi nə Fransa, nə də başqa kimsə üçün uğurlu olmayacaq.

**- Bildiyimizə görə, sizin Azərbaycan Respublikasının Prezidenti ilə görüşünüzdə Azərbaycanın Aİ-də hansısa status, ən azı müəyyən yaxınlaşma formatları alması mövzusu qaldırılıb. İlham Əliyevin bu məsələyə münasibəti necədir?**

- Bu mövzu gündəmdədir, Azərbaycanla Aİ arasında yaxınlaşmanın müxtəlif variantları var. Görüşümüzün bu hissəsinin məzmununu açıqlamayacağam; Amma təsdiq edə bilərəm ki, bu mövzu bizim Aİ ölkələri ilə Azərbaycan arasında ikitərəfli və çoxtərəfli münasibətlərimizdə müzakirə olunur. Burada heç kim hansısa formatı tətbiq etmir və bu müzakirəni süni surətdə irəli aparmır. Son qərar isə təbii ki, Azərbaycanındır. Və o, Azərbaycan Respublikasının öz milli maraqları əsasında qəbul ediləcək, mən buna yenə də şübhəm yoxdur.

**- Görüşünüzdə hazırda münasibətlərdə prioritet olan hansı prioritet sazişlər və strateji layihələr müzakirə olunub?**

- Şübhəsiz ki, bu, nəqliyyat logistikasıdır, bu, Azərbaycan ərazisindən də keçən "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin digər ölkələrlə birgə həyata keçirilməsidir. Bu gün dövlətlərimizin hökumətləri səviyyəsində bu layihənin həyata keçirilməsinin bütün maliyyə və texniki aspektləri yekun təsdiq mərhələsindədir və əminəm ki, bu layihə tam işə salındıqdan sonra mühüm geosiyasi və geoiqtisadi əhəmiyyət kəsb edəcəkdir. Çünki bu, rolu Baykal-Amur magistral xətti ilə müqayisə ediləbilən bir layihədir. Rusiya və Azərbaycan liderləri Vladimir Putin və İlham Əliyev bu yaxınlarda Kremldə BAM veteranları ilə görüşərək 50 illik yubileyini qeyd etdilər. Bu, əlbəttə ki, əlamətdar hadisə, əlamətdar görüş idi ki, bu görüşdə Heydər Əliyevin bu layihənin həyata keçirilməsinə, Rusiya-Azərbaycan münasibətlərinin formalaşmasına verdiyi töhfə böyük hörmət və ehtiramla xatırlandı. "Şimal-Cənub" isə bu gün Rusiya və Azərbaycan üçün ikitərəfli münasibətlər çərçivəsindən kənara çıxan, həyata keçirilməsi strateji əməkdaşlığımıza uyğun gələn, səmərəli, qarşılıqlı faydalı gələcəyə, təhlükəsizlik və firavanlığa yönəlmiş mühüm, qlobal layihədir.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

SON SƏHİFƏ
SƏS
7 may
2024-cü il

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Əmlak kirayə verirsiniz? – mütləq müqavilə bağlayın!



***"Azərbaycan Respublikasında əmlak kirayəsi üzrə münasibətlər Mülki Məcəllə ilə tənzimlənir". Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Xanlar Sətullayev deyib. Hüquqşünas bildirib ki, əmlak kirayəyə verilərkən mütləq müqavilə bağlanmalıdır və həmin məcəllənin 675-ci maddəsində göstərilir ki, əmlak kirayəsi müqaviləsinə görə, kirayəyə verən əşyanı kirayəçinin istifadəsinə verməyi, kirayəçi isə bunun üçün kirayəyə verənə kirayə haqqı ödəməyi öhdəsinə götürür.***

Kirayə müqaviləsi bağlamaq üçün aşağıdakı sənədlər tələb olunur:

Əmlak üzərində mülkiyyət hüququnu təsdiq edən sənədin notariat qaydasında təsdiq edilmiş surəti;

Mülkiyyətçi nikahdadırsa, onun nikahı haqqında şəhadətnaməsi;

Daşınmaz əmlakın kirayəyə verilməsinə ərin (arvadın) notariat qaydasında təsdiq edilmiş razılığı;

Yaşayış evində, mənzildə, bağda və bağ evində yaşayış yeri üzrə qeydiyyatda olması barədə qeydiyyatda olan yetkinlik yaşına çatmış bütün ailə üzvlərinin notariat

**MÜNASİBƏT**

qaydasında təsdiq edilmiş razılığı; Daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayış.

Bütün kirayə müddəti ərzində kirayəyə verən kirayəyə verilən əşyanın kirayəçinin istifadəsi üçün yararlı vəziyyətdə olmasına, kirayəyə verilmiş əşyanın əmlak kirayəsi müqaviləsi ilə qarantiya verilmiş xassələrə malik olmasına məsuliyyət daşıyır. Kirayəyə verən kirayəyə verilmiş əşyanın saxlanması və ya bərpası üçün kirayəçinin çəkdiyi zəruri xərclərin əvəzini ona ödəməyə borcludur.

Kirayəçi müqavilə öhdəliklərinin pozulmasında təqsirli olduqda, kirayəyə verənin otaqlara özü və ya ailə üzvləri üçün mənzil kimi ehtiyacı olduqda, kirayəyə verən binanın yardımçı qeyri-yaşayış otaqlarını kirayəyə vermək məqsədilə yeni avadanlıqla təchiz edərək yol verilən şəkildə yaşayış otaqlarına çevirmək niyyətində olduqda və müqavilənin ləğvini yalnız bu otaqlar üçün məhdudlaşdırdıqda kirayəyə verən yaşayış otağının kirayəsi müqaviləsi üzrə hüquq münasibətlərini ləğv edə bilər.

Əmlak kirayəsi müqaviləsinin ləğvinə dair bildiriş yazılı formada verilməlidir. Əmlak kirayəsi müqaviləsinin ləğvinə dair bildirişdə müqavilənin ləğvi üçün əsaslar göstərilməlidir".

***Söylü***

# "Ailə qurarkən yaş fərqinin nəzərə alınması şəxsi məsələdir"

**PSİXOLOQ İZAH ETDİ**



"Ailə qurarkən yaş fərqinin nəzərə alınması şəxsidir, fərdi münasibət göstərilir". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Gülər Məmmədova deyib. Psixoloq bildirib ki, erkən yaşda ailə qurmaq həm fizioloji, həm də psixoloji cəhətdən ailə həyatına tam hazır olmamaq deməkdir: "Erkən yaşda ailə qurmaqdan əlavə bəzi insanlar özlərindən yaşca böyük insanlarla ailə qurur. Zaman keçdikcə baxışlarının, maraqlarının fərqli olması, ahəng pozulması prosesi baş verir. Sonrakı peşmançılıq yaranır. İnsanların bir-birinə olan münasibətində fərqlilik ola bilir, dəyər aşağı düşür, anlaşma pozulur. Çünki gənc yaşda yaşayıb yaratmaq, əylənmək istəyən birinin potensialı içəridə basdırılır, yaşlı insan bunları sevmədiyi üçün balans pozularaq maraqlar, dəyərlər, meyillər üst-üstə düşmədiyi üçün konflikt yarana bilir. Fizioloji baxımdan da problemlər mövcud olur.

Ümumiyyətlə, hər kəs zəkasına uyğun olaraq yaşı müəyyən etməlidir. Bəzi qızlar sanki valideynlərinə olan sevgi ilə əlaqədar yaşlı insanla ailə qurmağı uyğun bilirlər. Amma zaman keçdikcə bunun nə qədər problem olduğunun fərqinə varırlar. Erkən yaşda gənc qızların yaşlı insanla ailə qurmasını bəzilərinin ailələri məcbur edir. Bu da cütlüklər arasında bir neçə problemin yaranmasına səbəb olur. Əksinə olduğu təqdirdə də yaşlı qadınların erkən yaşda oğlanlarla ailə qurması yenə də maraq dairəsində, inkişaf dinamikasında özünü doğrulda bilər. Amma bu fərdi yanaşmadır. İstisna hallar çox olur ki, bu ailələrdə müəyyən harmoniya da olur, anlaşma da pozulmur, dəyərlər qorunub saxlanılır. Şahidi oluruq ki, eyni yaşda ailələrdə də münasibəti tənzimləyə, qoruya bilmirlər. Konfliktlər yaranır, bu nisbi məsələdir. Amma əksər hallarda qeyd olunanlar özünü doğruldur".

***S. Ağazadə***

# Heyvanlarla bağlı yeni qanun layihəsi hazırlanır

***Azərbaycanda "Heyvanlarla məsuliyyətli davranış haqqında" yeni qanun layihəsi hazırlanır. SİA-nın xəbərinə görə, layihədə fiziki və hüquqi şəxslər tərəfindən heyvanların saxlanması, onlarla davranış zamanı yaranan münasibətlərin hüquqi əsaslarının müəyyən edilməsi nəzərdə tutulur.***

Qanun layihəsi heyvanlarla davranışda qəddarlıq hallarının və belə hallara cəmiyyətin laqeydliyinin aradan qaldırılması məqsədilə hazırlanır.



Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3200